

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarixin dönüşünü dəyişən LİDER



3

SƏS

№ 178 (7103)

28 sentyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Vətən övladlarının xatirəsinə böyük ehtiram




2

*Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub*

# Zəfərin 4 illiyi: Böyük Qələbəyə aparan yol nədən və haradan keçdi?

***2020**-ci il tarixdə Azərbaycanın Qələbə ili və işğal olunmuş torpaqlarını düşməndən azad etməsi ili kimi qaldı. Azərbaycan ordusu cəmi ay yarım ərzində Ermənistan ordusunu tamamilə darmadağın edərək Qarabağı düşməndən azad etdi. Bu müharibədə ordumuz, dövlətimiz və xalqımız böyük həmrəylik nümayiş etdirərək birgə mübarizə apararaq bu şanlı qələbəni təmin etdi. Son 4 ildə Qarabağda bərpa və quruculuq işlərim aparılır. Şəhərlərimiz kəndlərimiz, infrasturktur bərpa olunur, məcburi köçkünlər öz yurdlarına qayıdır, bölgənin sosial, iqtisadi, mədəni inkişafı başlayır. Bəs bu Qələbənin səbəbləri nədə gizlənir? Bu yazıda 2-ci Qarabağ Müharibəsində qələbəyə aparan yolları göstərməyə çalışacağıq.*



6

**Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkında olublar**



5

## MARİONETİN TUTUQUŞULARI



7

**Böyük Qayıdış: Cəbrayıla ilk köç karvanı**



11

## Ürəyimizə görə dünyada birinciyik



15

## Trendyolda qiymətlər "oynayır"...



13

# Vətən övladlarının xatirəsinə böyük ehtiram

***Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı.***




*Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub*



Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılması hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Bildiyimiz kimi, Prezident İlham Əliyev Azərbaycan Prezidenti seçilərkən beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam və şərtsiz bərpasını öz siyasi proqramının ali məqsədi olaraq bəyan etmişdi. Bu siyasi proqram artıq reallaşdı.

27 sentyabr 2020-ci il tarixində təcavüzkar və işğalçı Ermənistanın növbəti qanlı təxribatı və fitnəkarlığına cavab olaraq, Vətən Müharibəsinin başlanması və Zəfər yürüşü tariximizə yazılan səhifədir. Ölkəmizdə 44 gün davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən qeyd edilir. Bu Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlamətidir. Azərbaycanı Zəfərə, Qələbəyə aparan bu gün Azərbaycan xalqının qürür günüdür.

### ZƏFƏR GÜNÜNÜN VƏ SARSILMAZ BİRLİYİN TƏCƏSSÜMÜ

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür. Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub və parkın girişində xatirə daşının önünə gül dəstəsi qoyub.

Vurğulayaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq. Zəfər parkının ərazisi doqquz hektardan çoxdur. Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir. Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək.

### "BİZ ELƏ İLK GÜNDƏ DÜŞMƏNİN MÜDAFİƏ XƏTTİNİ YARMAĞA NAİL OLDUQ"

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən Zəfər tariximiz 44 günlük qətiyyətli yolun sonunda yazıldı. Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə verdiyi dərs tarix boyu yaddan çıxmayacaq. 27 Sentyabr 2020-ci il tarixində başlanan müharibə 44 gün ərzində Qələbə ilə sona çatdı. Azərbaycanın 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqları işğaldan azad olundu. Vətən oğulları qanları ilə torpaqlarımızı işğaldan azad etdilər. Hər gün bizi Qələbəyə doğru aparırdı. "Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi – Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik", - deyə Prezident İlham Əliyev bildirmişdir.

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd edirdi ki, bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir: "Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

### "BİZ BUNDAN SONRA QALİB ÖLKƏ, MÜZƏFFƏR XALQ KİMİ YAŞAYACAĞIQ"

Müharibənin ilk günü Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri işğaldan azad olundu. Müharibənin ilk günü. Bu artıq Ali Baş Komandan, Cənab İlham Əliyevin müdrik siyasətinin nəticəsi idi. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad olundu. Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan şanlı qəhrəmanlıq salnaməsi yazaraq, qısa bir zamanda düşmən üzərində tarixi zəfər çaldı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu.

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanlığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir". Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin şərəf və mübarizlik simvoluna çevrilən İkinci Qarabağ - Vətən müharibəsində Azərbaycan xalqının həmrəyliyi, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli siyasəti və Ordumuzun gücü sayəsində qazanılmış parlaq Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün deyil, eyni zamanda, tarixi ədalətin və milli ləyaqətin bərpasıdır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatının həyata keçirilməsi, döyüş meydanında möhtəşəm Qələbə qazanılması sayəsində Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. Bu tarixi Qələbə ilə Azərbaycan xalqı düşməndən qisas aldı şəhidlərimizin qanı yerdə qalmadı. Vətənin bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlər, arxa cəbhədə çalışan mülki şəxslər, ümumilikdə, Azərbaycan xalqı cəsarət və qətiyyət göstərərək, bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdi və Zəfər tariximiz yazıldı. Bu gün öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etmiş Azərbaycan regionda yeni reallıqlar yaratmışdır. Bütün şərtləri diktə edən qalib Azərbaycanın konstruktiv siyasəti, strateji əhəmiyyətli təklif və təşəbbüsləri regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasına yönəlmişdir.

Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara BÖYÜK QAYIDIŞA başlayıb: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır", - deyə Cənab Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tarixin dönüşünü dəyişən LİDER

*"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir"*

**Ulu Öndər Heydər Əliyev**

Azərbaycan xalqı tarixin müxtəlif dönəmlərində ziddiyyətli hadisələrlə, fəlakətli vəziyyətlərlə, ölüm-qalım sınaqları ilə üz-üzə qalıb, lakin heç zaman işıqlı sabaha, böyük Azərbaycan qurmağa olan mübarizəsindən əl çəkməyib. Əksinə, xalqımız üzləşdiyi sınaqlarla daha da mətinləşib, iradəli və qətiyyətli olub. Təəssüf hissi ilə onu vurğulamaq lazımdır ki, bəzən üzləşdiyimiz bəşəri faciələrin başlıca çatışmayan məqamı xalqın önündə getməyi və haqq mübarizəsində qalibiyyət yaşatmağı bacaran liderinin olmaması olub. Məhz lider problemi səbəbindən 1918-ci ildə qazanılan müstəqilliyin ömrü cəmi 23 ay çəkdi. Xalqımız müstəqilliyini itirsə də, yenidən toparlanmağı və dövlətçiliyini qurmaq mübarizəsini davam etdirməyə nail oldu. Nəhayət çətin, ağır mübarizə öz nəticəsini verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı yenidən müstəqil dövlətçiliyini qura bildi. Bu dəfə də xarici dövlətlərin kəşfiyyat orqanları AXC-Müsavat iqtidarının zəifliyindən, bacarıqsızlığından istifadə edərək qazanılan dövlət müstəqilliyini məhv etməyə cəhdlər göstərdilər. AXC-Müsavat iqtidarı mövcud ağır problemləri aradan qaldırmaq üçün xalqla birləşmək, xalqın çağırışlarını eşitmək əvəzinə küçələrə çıxıb etiraz səslərini qaldıran əhalinin üstünə güc strukturlarını göndərib, insanları əzməyə, döyməyə, həbsxanalara salmaq yolunu tutdular. Bu da xalqla hakimiyyət arasında uçurumu daha da dərinləşdirdi. Bu kimi ağır fəlakətli vəziyyətin fonunda ermənilər ardıcıl olaraq torpaqlarımızı işğal edirdi. Ölkədə xaos və anarxiya hökm sürürdü, müxtəlif silahlı qruplaşmaların evlərə daxil olub, soyğunçuluq etmələri əhalinin sabaha olan inamını daha da sarsıtmışdır. Digər tərəfdən "sadvalçılar" "əlikramçılar" meydana çıxıb, ölkəni bölməyə cəhdlər göstərirdilər. Gəncədə törədilən qardaş qırğını hadisələrin kulminasiya nöqtəsi oldu. 1993-cü il iyunun 13-də Milli Məclisdə Gəncə hadisələri ilə bağlı gərgin müzakirələr aparıldı. Gəncədə baş verən faciəvi vəziyyətə görə məsuliyyət daşıyan AXC-Müsavat iqtidarının əsas şəxsi, parlamentin sədri İsa Qəmbər istefa verdi. Məsuliyyətdən qaçmaq üçün digər hökumət və dövlət nümayəndələri də ardıcıl olaraq istefa verdilər. Ölkə başsız, xalq ümidsiz vəziyyətə düşmüşdü. Belə ağır dönəmdə xalq üzünü dahi oğlu, o zaman Naxçıvan Ali Məclisin sədri olan Heydər Əliyevə tutdu, Ondan dövləti məhv olmaqdan xilas etməyi xahiş etdi. Xalqın adından çıxış edən böyük fəlakətlərin qarşısını almaq üçün 91 ziyalı 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Tarixi qəzet



## "Səs" qəzeti vasitəsi ilə Azərbaycan xalqına müraciəti Dahi Öndər Heydər Əliyevin böyük zəka, dahi strateq, uzaqgörən lider olduğunu bir daha təsdiqlədi

olan, daim Ulu Öndərimiz Heydər Əliyevin xalq və dövlət maraqlarına söykənən siyasətinin əsas təbliğatçısı və təqdimatçısı olan "Səs" qəzeti vasitəsilə edilən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

### Xalqa bəxş edilən ömür

Ümummilli Lider Heydər Əliyev ziyalıların Ona ünvanlanan müraciətinə hörmət və rəğbət göstərdi. Çünki xalq və dövlətimiz çətin və ağır dövr yaşayırdı. Ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Ulu Öndərimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması tarixi zərurət idi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır". Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Xalqın istəyinə və o zamankı Elçibəy hakimiyyətin israrlı xahişləri əsasında Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı və Azərbaycanı gözləyən dəhşətli hadisələrdən, faciələrdən xilas etdi. Ulu Öndərimiz Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

### 1993-cü il oktyabrın 3-də azad, demokratik seçki ənənəsinin əsası qoyuldu

Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı və qısa müddətdə sosial-iqtisadi sahədə inkişafa nail olması, silahlı birləşmələri ləğv etməsi, beynəlxalq aləmlə əlaqələrini inkişaf etdirməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə imkanlar yaratdı. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevə öz sevgisini, yüksək hörmət və etimadını 1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkilərində nümayiş etdirdi. Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi olan prezident seçkilərində Ulu Öndər Heydər Əliyev xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildi. Dahi Öndərimiz Heydər Əliyevin seçkilərdə böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, Onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Ulu Öndər 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqində demişdir: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm". Verilən vədlər, qarşıya qoyulan vəzifələr layiqincə həyata keçirildi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına neftin daşınması həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin müəllifliyi və rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı.

### Azərbaycan dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrildi

Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı, digər sahələrdə də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi olan, həm də 30 il işğal altında olmuş torpaqlarını 44 günlük Vətən Müharibəsi ilə azad edən güclü və qüdrətli Azərbaycan dövlətidir. Qazanılan uğurlar, əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin çox böyük müdrikliklə apardığı siyasətinin bəhrəsidir. Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.

**İLHAM ƏLİYEV**

# Görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayev



***"Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatımızdan keçir. Bəzi əsərlər var ki, onlar açıqaçığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır.***

Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin, Məmməd Rahimin, Osman Sarıvəllinin, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin də əsərlərindən yan keçməyibdir... " Bu fikirləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bildirib. Həqiqətən də fəlsəfi düşüncələri ilə ədəbiyyatımıza yeniliklər gətirmiş, bəşəri duyğuları oxucularımıza aşılamış xalqımızın görkəmli simaları, mütəfəkkirləri olmuşdur və bu sırada Mir Cəlal Paşayevin də payı var. Sanballı romanlar, povestlər, hekayələr ustası, müəllifi kimi tanınan, ədəbiyyatımızın yaradıcılarından biri, ədəbiyyatşünas alim Mir Cəlal Paşayev elmin, ədəbiyyatın, təhsilin inkişafında da misilsiz xidmətlər göstərmişdir. Xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 28 sentyabr anım günüdür.

Əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmiş Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. Tərcümeyi - halında qeyd olunduğu kimi, 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

## YARADICILIQ YOLUNUN CIĞIRLARI

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir..."



Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

## "VƏTƏN YARALARI" HEKAYƏSİNİ OXUDUQDAN SONRA MƏN DÜŞMƏNƏ QARŞI DAHA KİNLİ VƏ AMANSIZ OLDUM"

İkinci Dünya müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir. O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də Onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

## BƏŞƏRİLİYİ HEYRANLIQLA QARŞILANIR

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

"XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda, görkəmli tədqiqatçı alim olmuşdur", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və alçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

***ZÜMRÜD BAYRAMOVA***

# Rusiyanın dəyişən nüvə doktrinası



## Dünya mediasının reaksiyası

Vladimir Putin Rusiyanın nüvə doktrinasını genişləndirdiyini açıqlayıb. Sənədin yenilənmiş variantına görə, Moskva nüvə dövlətinin dəstəyi ilə istənilən dövlətin təcavüzünə nüvə reaksiyası hüququnu özündə saxlayır. Putin Qərbə yeni nüvə təhdidləri göndərib. O qeyd edib ki, adi silahlardan istifadə edən, lakin nüvə dövlətinin dəstəyi ilə istənilən ölkənin Rusiyaya qarşı təcavüzü müştərək kimi qiymətləndiriləcək. Təhlükəsizlik Şurasının iclasında Putin deyib ki, "özləri və müttəfiqləri üçün yeni hərbi təhdid və risk mənbələrinin ortaya çıxması" fonunda Müdafiə Nazirliyi və Rusiyanın digər müvafiq idarələrinin mütəxəssisləri tərəfindən son bir il üçün ölkənin nüvə doktrinasının təhlili üzərində çalışıb dərin araşdırma aparıblar.

"Sənədin genişləndirilmiş variantında nəzərdə tutulur ki, Moskva hər hansı qeyri-nüvə dövlətinin Rusiyaya qarşı təcavüzünü birinin iştirakı və ya dəstəyi ilə birgə hücum hesab edəcək", - Putin görüşdə deyib. Onun sözlərinə görə, Moskvanın nüvə silahından istifadəsini nəzərdən keçirmək üçün şərt "aerokosmik hücum silahlarının kütləvi şəkildə buraxılması və onların dövlət sərhədimizi keçməsi haqqında etibarlı məlumat" olacaq. "Biz İttifaq dövlətinin üzvü kimi Rusiya və Belarusa qarşı təcavüz halında nüvə silahından istifadə etmək hüququnu özümüzdə saxlayırıq", - deyə prezident əlavə edib.

Vladimir Putin Rusiyanın nüvə doktrinasının dəyişdirilməsini təklif edib. Hər hansı qeyri-nüvə dövlətinin, lakin nüvə silahına malik olan ölkənin iştirakı və ya dəstəyi ilə təcavüzü onların Rusiyaya birgə hücumu kimi qiymətləndirilməsi təklif edilir.

Qərb mediası buna belə reaksiya verib.

"Financial Times" yazır ki, nüvə doktrinasında dəyişiklik Putinin Qərbin Ukrayna Silahlı Qüvvələrinə Rusiyanın dərinliklərindəki hədəfləri vurmağa icazə vermək niyyətinə reaksiyası olub. Putinin təhdidləri Ukraynanın Qərb müttəfiqlərinə, xüsusən də ABŞ və Böyük Britaniyaya açıq mesaj göndərdi ki, onlar Kiyevə Qərb istehsalı olan "Storm Shadow" raketləri ilə Rusiyanın dərinliklərindəki hədəfləri vurmağa icazə vermək niyyətindədirlər.

"The Guardian" isə hesab edir ki, Moskvanın reaksiyası NATO-nun hərəkətlərinə cavabdır:

Ukraynadakı xüsusi əməliyyatın ilk günlərində Putin Moskvanın dünyada ən böyük nüvə arsenalını tez-tez xatırladır və Rusiyanı müdafiə etmək üçün bütün lazımi vasitələrdən istifadə edəcəyinə dəfələrlə söz verirdi. Daha sonra o, ritorikasını düzəlişlər etdi, lakin prezidentə yaxın rəsmilər bu yaxınlarda NATO ölkələrinə xəbərdarlıq ediblər ki, Ukraynaya uzaqmənzilli silahlardan istifadə etmək üçün yaşıl işıq yandırsalar, nüvə müharibəsi riski ilə üzləşəcəklər.

"Teleqraf" Putinin sözlərini "Qərbə sərt yeni xəbərdarlıq" adlandırıb: Çərşənbə günü prezident Vladimir Putin Qərbə yeni xəbərdarlıq edərək bildirib ki, nüvə dövləti tərəfindən dəstəklənən ölkənin Rusiyaya hər hansı adi hücumu onun ölkəsinə qarşı birgə hücum kimi qiymətləndiriləcək. Geniş mətn sənədin əvvəlki variantı ilə müqayisədə nüvə silahının mümkün istifadəsi şərtlərini xeyli genişləndirir. Nəşr ekspertin Rusiyanın nüvə doktrinasında dəyişiklikləri boş təhlükə hesab edənlərə ünvanladığı sözləri də sitat gətirir: RAND-ın baş politoloqu Samuel Çarap sosial mediada yazıb: "Bunun blef olduğunu düşünsəniz də, etməsəniz də, böyük bir nüvə dövlətinin nüvə silahından istifadə həddini aşağı saldığını söyləməsi yaxşı bir şey deyil".

The New York Times doktrina dəyişikliklərinin məqsədləri ilə bağlı qərbli ekspertin fikrinə istinad edir:

Cenevrədən olan nüvə silahı üzrə analitik Pavel Podviq deyib ki, doktrinada edilən dəyişikliklər, görünür, "Ukraynanın Qərb müttəfiqlərini daha da çəkindirmək üçün" edilir. Podviq telefonla verdiyi müsahibədə, "Təcavüzün nədən ibarət olduğunu və nəyin olmadığını izah etmək üçün çox yer var" deyib.

CNN hazırkı vəziyyəti "Kuba raket böhranından sonra Rusiya ilə Qərb arasında ən ciddi qarşıdurma" adlandırır: Ukraynada 2 il yarımdır ki, davam edən münaqişə 1962-ci ildə Kuba raket böhranından sonra, iki supergücün nüvə müharibəsinin bir addımlığında qaldığı vaxtdan bəri Rusiya ilə Qərb arasında ən ciddi qarşıdurmaya səbəb olub.

Der Spiegel yazır ki, Putinin məqsədi Ukraynaya daha çox silah tədarükünün qarşısını almaqdır: Yeni doktrina Rusiyanın, xüsusən də ABŞ və Fransa kimi Qərb nüvə gücləri üçün qisas riskini artırır. Sənədin yenilənmiş variantında deyilir ki, nüvə silahına malik olmayan dövlətin Rusiyaya qarşı təcavüzü, təcavüzkar ölkənin dəstəyi olacağı təqdirdə nüvə dövləti ilə birgə hücum sayıla bilər. Bu müddəa, məsələn, Rusiyaya hücum olacağı təqdirdə nüvəsiz Ukraynanı dəstəkləyəcək ölkələrə təsir edə bilər.

Le Figaro xatırladır ki, Vladimir Putin əvvəllər xəbərdarlıq edib ki, Qərb silahlarının Rusiyanı vurmasına icazə verilməsi NATO ölkələrinin münaqişənin birbaşa iştirakçılarına çevrilməsi demək olacaq. Rusiya prezidenti birbaşa Ukrayna və onun Qərb müttəfiqlərini qeyd etməsə də, Kiyev Rusiya ərazisini daha uzun mənzilli raketlərlə vurmağa icazə tələb etdiyi üçün bu kontekst aydındır. ABŞ Moskvanın reaksiyasından ehtiyat edərək buna yaşıl işıq yandırmır. Sentyabrın ortalarında Vladimir Putin artıq xəbərdarlıq etmişdi ki, belə bir qərar "NATO ölkələri Rusiya ilə müharibə vəziyyətindədir" demək olacaq.

**V.VƏLİYEV**

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkında olublar







27 Sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri düzülüb, qəhrəman Vətən övladları dərin hörmət və ehtiramla anılıb.



# Zəfərin 4 illiyi: Böyük Qləbəyə aparan yol nədən və haradan keçdi?

***2020-ci il tarixdə Azərbaycanın Qələbə ili və işğal olunmuş torpaqlarını düşməndən azad etməsi ili kimi qaldı. Azərbaycan ordusu cəmi ay yarım ərzində Ermənistan ordusunu tamamilə darmadağın edərək Qarabağı düşməndən azad etdi. Bu müharibədə ordumuz, dövlətimiz və xalqımız böyük həmrəylik nümayiş etdirərək birgə mübarizə apararaq bu şanlı qələbəni təmin etdi. Son 4 ildə Qarabağda bərpa və quruculuq işlərim aparılır. Şəhərlərimiz kəndlərimiz, infrasturktur bərpa olunur, məcburi köçkünlər öz yurdlarına qayıdır, bölgənin sosial, iqtisadi, mədəni inkişafı başlayır. Bəs bu Qələbənin səbəbləri nədə gizlənir? Bu yazıda 2-ci Qarabağ Müharibəsində qələbəyə aparan yolları göstərməyə çalışacağıq.***

## Böyük Qələbəni təmin edən iqtisadi güc necə formalaşdırıldı?

Qələbənin necə əldə edildiyini bilmək üçün əvvəlcə 1-ci Qarabağ müharibəsində Azərbaycanın məğlub olmasının səbəblərinə baxmaq lazımdır. Bu səbəbləri Prezident İlham Əliyev göstərib: "Biz 1-ci Qarabağ müharibəsində torpaqlarımızı ona görə itirdik ki, o vaxtkı Azərbaycan rəhbərliyi öz vəzifə borcunu yerinə yetirə bilmirdi. 1992-ci ildə Şuşanın, Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi faktiki olaraq Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratdı və ondan sonra digər torpaqların işğalı qaçılmaz idi. Ordumuz demək olar ki, dağılmışdı, nizami ordu yaradılmamışdı, cəsarətli, qəhrəman övladlarımız, sadəcə olaraq, qəhrəman kimi vuruşaraq şəhid olurdular, torpaqlarımız əldən gedirdi. Gücümüz yox idi".

Səbəbin ən qısa tərifi budur. Onda gücümüz yox idi, indi isə var. Və gələk bu müddətdə ölkəmizin bu gücü necə əldə etməsinə. Dövlət başçısı bu məsələləri belə



ifadə edib: "Mən bunu hələ 10 il bundan əvvəl proqnozlaşdırırdım, ona görə güc toplamaq üçün bütün imkanlar səfərbər edildi. Güc isə iqtisadiyyatdır. İqtisadiyyat güclü olmasa hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil.

İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli siyasət aparıldı. Güc toplamaq üçün əlbəttə ki, düzgün siyasət aparılmalıdır.

Eyni zamanda, biz öz siyasətimizlə Ermənistanı zəifləməli idik və bunu gizlətmirdik. Mən bunu təkcə bu gün demirəm, 10 il bundan əvvəl demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistanı bütün layihələrdən, bütün regional təşəbbüslərdən məhrum edəcəyik, onları təcrid edəcəyik və bunu etdik. Baxın indi Avrasiyanın enerji, nəqliyyat, kommunikasiya xəritələrinə, ölkələri birləşdirən bütün o yollar, ölkələr üçün böyük fayda gətirən layihələr Ermənistandan yan keçib... Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdik...

Biz heç nəyi hansısa məxfi formatda etməmişdik. Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi".

## Siyasi-diplomatik müharibədə qələbə necə əldə edildi?

İqtisadi müharibə uğurla başa çatdırılmışdı. Lakin müharibənin əsas cəbhələrindən biri də siyasi-diplomatik müharibə idi ki, burada da Azərbaycan qələbəni təmin etdi. Ölkə başçısı öz çıxışında bunu belə ifadə edib: "Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və buna nail olduq. Son 17 il ərzində demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar, qətnamələr qəbul edliblər. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər.

Biz Qoşulmama Hərəkatına üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik- bizim maraqlarımıza xidmət edən qətnaməni. Müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı.

Biz İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr qurduq. Tarixdə bu gün bu əlaqələr ən yüksək zirvədədir. İslam Əməkdaşlıq Təşkilatı bu münaqişə ilə bağlı düzgün, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən qətnamələr qəbul etdi.

Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-İran-Rusiya üçtərəfli formatları var. Ermənistanın hər hansı ölkələrlə bu formatı varmı? Yoxdur. Bu, bizim siyasətimizin düzgün olmasının bariz nümunəsidir.

Hər zaman öz siyasətimizi açıq aparmışıq. Heç bir ölkəyə qarşı heç bir avantürada yer almamışıq. Demişdim ki, Azərbaycan ərazisindən heç bir ölkəyə qarşı, o cümlədən, ilk növbədə, qonşulara qarşı heç bir təxribat xarakterli addım, təşəbbüs olmayacaq. Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Ona görə, bütün bu amillər öz rolunu oynadı".



## İnformasiya və təbliğat müharibəsində döyüş necə getdi?

Müharibənin ən vacib cəbhələrindən biri də bu idi. Azərbaycan son illərdə bu cəbhədə üstünlüyü ələ aldı. Prezident İlham Əliyev bu işə tarixi saxtakarlığı ifşa etməkdən başlandığını deyir: "Ermənistanın təqdim etdiyi saxta tarixi darmadağın etmişik, beynəlxalq tədbirlərdə dünya ictimaiyyətinə Kürəkçay sülh müqaviləsi haqqında kifayət qədər dolğun məlumat vermişik. Hər kəs gördü ki, erməni xalqı Qarabağ bölgəsində, sadəcə olaraq, son 200 il ərzində yaşayır, oraya köçürülüblər.

Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük səylər göstərdik- həm dövlət, həm Heydər Əliyev Fondu. Bu gün 13 ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb. Müharibə haqqında həqiqətləri, dağıdılmış şəhərlər, kəndlər haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdıq.

YUNESKO, hansı ki, bu gün bizə irad tutmağa çalışır, guya biz erməni dini abidələrini burada qoruya bilməyəcəyik. Halbuki bu, yalandır. Azərbaycanda bütün dinlərin abidələri qorunur. Bir dəfə gedib o torpaqlara? Bir dəfə Şuşa məscidində olub? Zəngilanda dağıdılmış məsciddə olub? Ağdam məscidində olub? Orada ermənilər donuz, inək saxlayırdılar. İndi bizə irad tuturlar.

Qeyd edək ki, dövlət başçısı müharibə dövründə nüfuzlu beynəlxalq media orqanlarına onlarla müsahibə verdi və elə sanballı faktlar, məntiqi dəlillərlə düşməni ifşa etdi ki, bu informasiya və təbliğat müharibəsində çox böyük rol oynadı. Dünya ictimai rəyi Azərbaycanıln haqq işinin tərəfində formalaşdırıldı. Bu işdə bütün xalqımız, xaricdəki diasporumuz da böyük rol oynadı və bu birlik informasiya müharibəsində öz sözünü dedi.

## Problemin hərbi yolla həlli əsas qələbəni təmin etdi

Bəzi beynəlxalq təşkilatların və böyük dövlətlərin rəsmi şəxslərinin dediyi "münaqişənin hərbi həll yoxdur" tezisi fiaskoya uğradı. Azərbaycan sübut etdi ki, sülh yolu baş tutmayanda hərbi yolla öz ərazi bötüvlüyünü bərpa etməyə qadirdir.

Ali Baş Komandan bu barədə belə deyib: "Biz Ermənistan, onun havadarları, onun himayədarları və ermənipərəst qüvvələr qarşısına təkbaşına çıxmışdıq. Təkbaşına! Heç kimi bizi bizə sərf etməyən sülh müqaviləsi variantına məcbur edə bilmədi. Halbuki bir neçə dəfə belə cəhdlər oldu. Amma keçmədi, keçməyəcəkdi. Çünki güclü iradə var idi və var. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Torpaqlarımızın işğaldan azad edilməsi ən başlıca vəzifə idi və biz bu vəzifəyə, bu hədəfə doğru inamla addımlayırdıq.

Sentyabrın 27-də mən dedim yetər artıq, irəli! 44 gün ərzində Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi. Bizim qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılmış və həyata keçirilmiş əməliyyatlar sayəsində, texniki imkanlardan istifadə edərək, qəhrəman övladlarımızın qəhrəmanlığına, rəşadətinə söykənərək biz mümkün olmayanı etdik, düşməni məhv etdik, düşmən ağ bayraq qaldırdı, diz çökdü. 300-dən çox şəhər və kəndlərimizi işğaldan azad edəndən sonra, qədim Azərbaycan şəhəri, hamımız üçün doğma olan Şuşanı və ardınca bir çox kəndləri azad edəndən sonra düşmən tam təslim oldu, kapitulyasiya aktına imza atdı və işğalda olan digər torpaqlardan geri çəkilməyə məcbur oldu.

Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq".

Qarşıda bizi nə gözlədiyini isə yenə dövlət başçısının sözləri ilə vermək istəyirik: "Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!"

***Elçin Bayramlı***

***Çoxdandır ki, ermənilərin böyük əksəriyyəti erməni baş mazir Nikol Paşinyanı ələ keçirdikləri torpaqları itirməkdə günahkar hesab edirlər. Bununla belə, bir zamanlar əli sarıqlı, beli çantalı küçə nümayişçisini elə birbaşa küçədən hakimiyyətə daşıyan haylar arasında onun barəsində olan fikir, rəy heç də birmənalı deyil, fərqli fikirlər, fərqli yanaşmalar var və lakin zəbt etdikləri torpaları əldən verənin məhz Paşinyan olduğu qənaətində olanlar çoxluq təşkil edir. Amma reallıqları, həqiqətləri, doğruları deyil, məhz erməni baş nazirin fikirlərini eyni ilə daxili auditoriyaya sırıyanlar da var və onları Paşinyanın tutuquşu hesab edirlər. Nəzərə alsaq ki, Nikol Paşinyan özü elə Qərbin marionetidir, deməli, onları marionetin tutuquşuları adlandırmaq da olar.***



TƏHLİL

# MARİONETİN TUTUQUŞULARI

### Ermənistanın hakimiyyət komandası tutuquşuluq edir və bu da diqqətdən yayınmır

Bir məsələni diqqətə çatdıraq və nümunə üçün qeyd edək ki, Ermənistanın iqtisadiyyat naziri, daha dəqiq desək, Gevork Papoyan da öz növbəsində Nikol Paşinyanı müdafiə etmək, daha doğrusu, ona yaltaqlanmaq niyyəti ilə erməni baş nazirin fikirlərini daxili auditoriyaya sırımaq fikrinə düşüb. Bunun üçün də təxəyyülünü işə salıb və ağlına gələni, daha doğrusu, Paşinyanın "ağlına gələni" və onun sözlərini danışmağa başlayıb. Eyni ilə erməni baş nazir hansı qənaətdədirsə, iqtisadiyyat naziri də eyni qənaətdə olduğunu nümayiş etdirməkdədir. Bir sözlə, həmin nazir elə ölkəsinin baş nazirinin fikirlərini olduğu kimi təkrarlamaqla, özünü tutuquşi kimi aparmaqdadır və bunun da ilk növbədə erməni cəmiyyətində rezonans doğurduğunu görürük. Bu da səbəbsiz deyil, çünki erməni baş nazirin özünü sudan quru çıxarmaq üçün dediklərini iqtisadiyyat nazirinin timsalında Paşinyanın hakimiyyət komandasının üzvlərinin eyni ilə təkrarlaması birinci və sonuncu hal deyil və Ermənistanın hakimiyyət komandasının belə tutuquşuluğunun davamlı xarakter alması diqqətdən yayına bilməz. Belə tutuquşuluq təkcə erməni cəmiyyətində deyil, hər yerdə açıq-aşkar görünür və heç şübhəsiz ki, ikrah hissi də doğurur.

Vovayeviçin mütəmadi olaraq, kimləri isə günahlandırmasına başda elə erməni cəmiyyəti olmaqla, hamı alışqandır və bütün dünya ictimaiyyəti bilir ki, onun məqsədi nəinki günahları, hətta bütün diqqəti belə üzərindən götürmək, hara isə istiqamətləndirməkdir. Sözsüz ki, bunun üçün qondarma respublikanın, əldəqayırma qurumun hakimiyyəti ən asan və sadə yol hesab olunub deyə, Paşinyanın birinci hədəfi elə həmin qondarma rejim və qurum olub. Doğrudur, üçtərəfli danışıqlarla hayları 44 günlük müharibədə daha böyük itgilərdən, daha böyük fəlakətdən xilas edən Kremli də, Rusiya prezidenti Vladimir Putini də, ümumilikdə rusları da günahkar bəlləməyi Nikol utanmadan özünə rəva bilib, amma onun üçün ölkəmizin ərazisində bir zamanlar özü-özünü elan etmiş qondarma qurumu, qondarma rejimi hədəfə almaq ən "qısa yol" hesab olunub deyə, matəmadi şəkildə "hər şeydə" günahı həmin "qondarmaların" üzərinə atmaqda davam edib. Məsələ burasındadır ki, onun belə "qısa yol" hesab etdiyi "yolu" hakimiyyət komandası da gedir və eynən Paşinyanın özünün fikirlərini, sözlərini həm daxili auditoriya qarşıdında, həm də harda oldu, harda gəldi təkrarlayır. Belə çıxır ki, həmin komanda sadəcə olaraq, tutuquşuluq edir.

Əks halda, hər biri özünün subyektiv fikirləri ilə gündəmə gələrdi və Qərbin oyuncağı, aləti sayılan birinin dediklərini eyni ilə təkrarlamaqla marionetin tutuquşuları kimi tanınmazdılar.

### Paşinyanın komandası hələ də günahkar axtarışındadır və buna görə hər yola da əl atır

Papoyanın timsalında Ermənistanın hakimiyyət komandasının əksəriyyət nümayəndəsi eynən Paşinyanın dediyi kimi bildirir ki, zəbt etdikləri ərazilər məhz qurumun keçmiş prezidentinin imzası ilə təslim olub, onun imzası ilə bütün dövlət orqanları da buraxılıb. Yəni, bu boyda qələbəmizi də, bu qədər rüsvayçı məğlubiyyətlərini də ört-basdır etmək üçün hər yola əl atılır. Hətta Papoyan onu da xüsusilə vurğulayır ki, bütün olanlar keçmiş prezident məhz prezident olduqdan cəmi 10-15 gün sonra baş verib. Amma bu qədər qısa zaman fasiləsi üçün belə ittihamı edənlər az deyillər. Məsələ burasındadır ki, eyni zamanda Ermənistanın əvvəlki prezidentləri də hədəfə alınır. "Keçmiş prezidentlər arasında on illik danışıqlar yalnız Dağlıq Qarabağ və ətraf ərazilərin nə vaxt və necə təslim ediləcəyi ilə bağlı olub", deyə Gevorq Papoyan açıq şəkildə ittihamla çıxış edir. Bizim Ermənistanın hansısa prezidentinə, eks prezidentinə, baş nazirinə haqq qazandırmaq, hansını isə müdafiə etmək kimi bir niyyətimiz əsla yoxdur, amma Paşinyanın absurd fikirlərini tutuquşu kimi təkrarlayanları görməmək də olmur. Hər halda, bunu bizimlə yanaşı, bütün dünya ictimaiyyəti də görür və insanlar onların tutuquşuluğu ilə bağlı eyni qənaətdədirlər.

Ola bilsin ki, Papoyan kimilər sadəlövhcəsinə erməni xalqının qısa, müvəqqəti yaddaşa sahib olduğuna ümid bəsləyirlər. Ancaq, unudurlar ki, haylar da hər şeyi "lazım olduğundan da artıq dərəcədə" xatırlayırlar, eyni zamanda, bütün dünya ictimaiyyəti də reallığın nədən ibarət olduğunu yaxşı başa düşür, yaxşı bilir. Hazırki Ermənistan hakimiyyətinin, iqtidarının necə qorxaq olduğunu, müxalifətin mövqeyindən, qərarından necə çəkindiyini, daxili auditoriyaya hesablanan qorxaq bəyanatları insanlar çox yaxşı başa düşür, çox aydın şəkildə görürlər. Görürlər ki, Paşinyan özü də, komandası da reallıqları etiraf etmək, həqiqətin gözünə dik baxmaq, doğru olan yolu seçmək əvəzinə, qorxudan, ancaq özünü, öz hakimiyyətini müdafiə etmək üçün günahkar axtarışında, kimləri isə günah keçisi qələminə vermekdədir. Bunun üçün tutuquşuluq da edilir, lazım gələndə hər yola da əl atılır.

### Marionetin tutuquşusu rolunda çıxış etmək ikrah hissindən başqa heç bir hiss doğura bilməz

Bəli, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir neçə il bundan əvvəl rəsmən bəyan etdi. Təkzibedilməz fakt ondan ibarətdir ki, 2022-ci ildə Praqada Avropa Siyasi Birliyinin bildiyimiz həmin o Zirvə toplantısında məhz Nikol Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevlə sənəd imzalayıb və həmin sənəd Qarabağın Azərbaycana məxsus olduğunu təsdiqləyən sənəddir. Yaxşı, sual oluna bilər ki, indi Paşinyan da, onun tutuquşuları da nəyin axtarışındadırlar? Onlar nəyin günahkarını axtarırlar? Ümumiyyətlə, nəyə görə günahkar axtarırlar? Axı Nikol Paşinyan əvvəla reallığı etiraf edib, reallığı təsdiq edən sənədi imzalayıb. Vovayeviç, buna görə erməni cəmiyyətindən, erməni müxalifətindən niyə qorxmalıdır ki, özünü "təmizə çıxarmaq" üçün kimi isə günah keçisi kimi bəlləsin və tutuquşuları da onun dediklərini təkrarlasınlar? Digər tərəfdən də, axı erməni baş naziri Nikolun başqa çıxış yolu qalmışdımı ki, indi tutuquşuları ilə birgə "seçimdə" günahkar axtarışındadırlar? Əsrin üçdə birinə qədər müddət ərzində ərazilərimizi işğal altında saxlayan Ermənistan tərəfi deyildimi? Qondarma rejim də, əldəqayırma hökumət də rəsmi İrəvana sığınmırdımı və separatçıların arxasında işğalçı ölkənin hakimiyyəti, erməni lobbisi, şovinistlər deyildilərmi? Uydurma, gülünc olan "Böyük Ermənistan" xülyası ilə ərazilərimizə soxulub, işğal və zəbt edənlərin kimlər olduğunu, kimlərin də onların dəyirmanına su tökdüyünü təkcə biz yox, dünya ictimaiyyəti də bilmirmi? İndi nə ortalığa düşüb tutuquşuluq edirlər? Kim kimin oyuncağı, marioneti olduğunu bilmirikmi və indi eyni fikirlər səsləndirməklə, Qərbin marionetinin tutuquşusu rolunda çıxış etmək ikrah hissindən başqa daha hansı hissi doğura bilər? Əlbəttə ki, başqa heç bir hiss doğura bilməz və istənilən halda bunun nə dərəcədə gülünc olduğu göz önündədir.

### Marionetin tutuquşuları arasında Ermənistanın hüdudlarından kənarda olanlar da var və onların heç biri həqiqətləri etiraf etmirlər

Qondarma rejimin heç bir statusunun olmamasını, əldəqayırma hakimiyyəti Ermənistanın baş naziri öz ifadələri ilə, Qarabağın məhz Azərbaycan ərazisi olması və ölkəmizin ərazi bütövlüyünü etiraf etməsi ilə təsdiq etdi. İndi bizim, ümumilikdə bütün dünya ictimaiyyətini müşhaidə etdiyi nədir? Müşahidə olunan odur ki, ümumilikdə erməni xalqı qarşısında əsl həqiqətin nədən ibarət olduğunu etiraf etmək əvəzinə, Gevorq Papoyan kimilərinə yalan ifadələr səsləndirilməsi, günahkarın kimlərsə olduğunu deməsi tapşırılır. Yəni bütün dünya ictimaiyyətinin gözü qarşısında Papoyan kimiləri də Nikol Paşinyanın tutuquşusu olmaq üçün əl-ayağa düşməkdədir.

Nikol Paşinyanın, eləcə də onun Ermənistanın baş naziri olmasının məhz Qərbin layihəsi olduğunu hər kəs yaxşı bilir, çünki artıq bu heç də sirr deyil. O da sirr deyil ki, Qərb məhz Nikolun əli ilə, Ermənistan vasitəsi ilə Cənubi Qafqaza "soxulmaq" niyyətindədir və erməni baş nazir əmr qulu kimi çıxış edir. Bütün bunların da fonunda Vovayeviçin bir marionet kimi davrandığı da göz önündədir və heç də nəzərdən yayınmır. Bununla belə nəzərdən yayınmayan həm də odur ki, təkcə Paşinyan hakimiyyəti daxilində deyil, məsələn, Fransa XİN rəhbəri Stefan Sejurne kimi, Avropanın düz mərkəzindən gələn, Fransa kimi bir dövlətin siyasətçiləri arasında olan, ABŞ kimi bir ölkə təmsilçiləri sarasında sayılan bir çoxları da Nikol adlı marionetin fikirləri ilə çıxış edirlər. Deməli, onlar özləri də məhz marionetin tutuquşuları kimi özlərini aparırlar. Belə çıxır ki, marionetin tutuquşuları arasında Ermənistanın hüdudlarından kənarda olanlar da var. Onların heç biri həqiqətləri etiraf etmirlər. Heç biri iki ölkə arasında sülh danışıqlarının baş tutmasına, ümumiyyətlə, Cənubi Qafqazda sülh və əminamanlığın təmin edilməsinə çalışmırlar. Eyni ilə Qərbin tapşırığı ilə marionetə çevrilən Paşinyanın tutuquşusu kimi çıxış edirlər. Əks halda, işğalçı ölkənin silahlandırılması, hərbi dəstək verilməsi, revanşistlərin ruhlandırılması üçün deyil, ikitərəfli danışıqların reallaşması üçün çalışardılar və hansısa mif, hansısa cəfəngiyyat barədə mövqe bildirməz, günahkar axtarışına, günah keçisi axtarışına çıxmazdılar

***İnam Hacıyev***



# Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalında - JF-17C

***Azərbaycana qardaş və dost dövlətlərdən olan Pakistan hər zaman ölkəmizin yanında olub. Bu münasibətlər qarşılıqlıdır. Ermənistanın Azərbaycana qarşı təcavüz və təxribatları, günahsız insanlara qarşı hücumları daim Pakistan xalqı, dövləti tərəfindən pislənilmişdi. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan, onunla diplomatik əlaqələr yaradan və Azərbaycanda səfirliyini açan ilk müsəlman dövlətlərindən biridir. Bakıda Pakistanın, İslamabada isə Azərbaycanın daimi nümayəndəliyi fəaliyyət göstərir. Pakistan və Azərbaycan arasındakı əlaqələr siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələri əhatə edir.***

Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq xalqlar arasında ənənəvi dostluq və qarşılıqlı etimadın təzahürüdür. Qardaş ölkə Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini hər zaman ifadə edib.

Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Onu da qeyd edək ki, Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır.

## ƏMƏKDAŞLIĞIMIZIN MÜHÜM ELEMENTİ VƏ QARDAŞLIQ ƏLAQƏLƏRİMİZİN HƏQİQİ NÜMAYİŞİ

Dövlətlərarası rəsmi səfərlər, keçirilən görüşlər, imzalanan sənədlər Azərbaycan ilə Pakistan arasında əməkdaşlığın davamlı olduğunu göstərir. Azərbaycanın qardaş ölkə ilə əməkdaşlığında hərbi siyasi amil də hər zaman mühüm rol oynayıb. Bu cəhətdən, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. 2020-ci ilin 27 sentyabrında ölkəmizdə Vətən müharibəsi başlayanda Pakistan xalqı Azərbaycana dəstək nümayiş etdirdi və bizim yanımızda olduqlarını təsiqlədilər. Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücumlarına Pakistan hər zaman mövqeyini bildirdi. Vətən müharibəsində Pakistan Senatı və Milli Assambleyası tərəfindən qətnamələr qəbul edildi. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev müharibənin ilk günlərindən Pakistanın ali rəhbərliyinin ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdiklərini bildirmişdir: "Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksək rütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər".

Xatırladaq ki, paytaxt Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş – 2021" beynəlxalq təlimi bu münasibətlərin təməlinin möhkəmliyini göstərdi. Bu gün artıq Pakistan da Azərbaycan kimi yaxın dost və qardaş ölkələr kimi tarixə düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır.

Azərbaycanın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri də qardaş Pakistandır. Prezident İlham Əliyevin bu ilin iyulunda Pakistana dövlət səfəri iki ölkə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə yeni təkan verib. Azərbaycan və Pakistan beynəlxalq platformalarda daim bir-birinə qarşılıqlı dəstək göstərir və həmrəylik nümayiş etdirirlər.

## "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN KEÇƏN DÖVR ƏRZİNDƏ ÖZ HƏRBİ GÜCÜMÜZÜ BÖYÜK DƏRƏCƏDƏ ARTIRMIŞIQ"

Sentyabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub. Bu təyyarələr artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilib. JF-17C (Block-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir. Təyyarə hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlüklərdə yüksək döyüş manevrinə malikdir, effektiv atəş gücünə görə seçilir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda ordu quruculuğu geniş vüsət alıb. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub, Silahlı Qüvvələrimizin müasir dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırığı ilə yeni ordu birləşmələri və qoşun növləri yaradılır, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Eyni zamanda, Ordumuzun hərbi-texniki təchizatı məsələsi Ali Baş Komandanın xüsusi diqqət mərkəzindədir. Yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi gücümüzün artırılmasının bir nömrəli vəzifə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib:"İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımı səviyyədə təmin edilir və təmin ediləcəkdir". Milli müdafiə sənayemizin inkişaf etdirilməsi, eyni zamanda, xarici ölkələrlə hərbi sahədə əməkdaşlıq, yeni müqavilələrin imzalanması da xüsusi vurğulanmalıdır.

## "BİZ BU GÜN SİLAHLI QÜVVƏLƏRİMİZİ VAHİD PROQRAM ƏSASINDA İNKİŞAF ETDİRİRİK"

Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara əsaslanan daxili və xarici siyasəti nəticəsində bütün sferalarda əldə olunan nailiyyətlər ölkəmizi zirvələrə yüksəltmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində də kifayət qədər əhəmiyyətli tədbirlər həyata keçirilib. Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti son illərdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, müasir mütəşəkkil ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Hələ sovet dövründə Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycan gənclərinin hərbi xidmətə hazırlanması, onların xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması məqsədi ilə ardıcıl tədbirlər həyata keçirilib. Azərbaycanda gənclərin hərbi xidmətə hazırlanmasına yeni tələblər irəli sürüldü. Belə ki, ilk növbədə, respublika məktəblərində rus dilinin tədrisinə diqqət artırıldı, Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı və hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Ümummilli Lideri Heydər Əliyevin sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Həmin dövrdə Bakıda iki ali hərbi məktəb var idi: Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu məktəblərin hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın ən müxtəlif şəhərlərindən bu məktəblərə axışıb gəlirdilər. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin nəticəsi olaraq Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbi açıldı və qısa zaman məsafəsində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Beləliklə, orduda peşəkar hərbçilərin sayı da artdı. C.Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsi, eləcə də sovet dövründə azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsi öz nəticəsini vermiş oldu.



Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra qısa müddət ərzində həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmizin bütün sahələrində, o cümlədən ordu quruculuğu istiqamətində dönüş yarandı. Müasir dövrümüzdə Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Ölkəmizdə istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillər sırasındadır.

Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidentin rəhbərliyi ilə Azərbaycan Ordusu Zəfərimizi tariximizə həkk etdi. Ötən ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim Ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür".

***Zümrüd BAYRAMOVA***





# Müharibəsiz dünya quraq...

Müharibə Bu, cəmi səkkiz hərfin birləşməsindən yaranan sadə bir söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içindəcə evsiz-eşiksiz qalanlar bilər. Bu gün müharibənin acılarını yaşan Rusiya, Ukrayna, Fələstin, İsrail xalqı bilər. 3 il öncə biz bildiyimiz kimi...

Müharibənin Vətəni yoxdur. O, harada baş verirsə, fərqli bir cəhəti olmur, eynilik təşkil edir. Bu səbəbdən də müharibənin nə olduğunu balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb, gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış çığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.

## Müharibəyə məruz qalan xalq kimi...

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm.

Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındılar. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndi. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Dədə-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər? Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərciklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?



Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərcikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdı bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdular. Gəl, bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm, necə yaşayırsan. Gəl, müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm, necə unudursan. Doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm, necə yaşayırsan? Gəl, həm canından qoparılan yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm, necə unudursan

## Biz sülh istəyirik

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər Ümummilli Liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdi. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

## İkinci Qarabağ müharibəsi qaçılmaz idi

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə sayğı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkisi, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi.

Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, çığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.

## Müharibə itkidir: həm haqlı, həm haqsız tərəf üçün

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Bu gün rusiyalı, ukraynalı, fələstinli, israilli uşaq, gənc, qadın, kişilərin faciəsini əks etdirən mənzərələrə qarşılaşarkən adamın ürəyi parça-parça olur.

Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuna hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş müharibəsiz bir dünya qura bilək

**Mətanət Məmmədova**

# Rusiyalı ekspert: “BMT-də “Ermənistana dəstək qrupu”nun yaradılması avantüradır”

***Nüfuzlu rusiyalı politoloq, iqtisadçı Aleksandr Razuvayev “Moskva-Baku” portalına müsahibəsində Nyu-Yorkda keçirilən BMT Baş Assambleyasında “Ermənistana dəstək qrupu” haqqında danışıb və maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***






**- BMT Baş Assambleyasında bəzi dövlətlərin təmsil etdiyi “Ermənistana dəstək qrupu”**



**toplaşıb. Emmanuel Makron dünya təşkilatının tribunasından bildirdi ki, beynəlxalq ictimaiyyət Azərbaycana təzyiq göstərmək və Ermənistanı ondan qorumaq üçün birləşməlidir. USAİD rəhbəri isə BMT Baş Assambleyasında bildirdi ki, Birləşmiş Ştatlar Ermənistanda kibertəhlükəsizliyin, enerji və sərhəd təhlükəsizliyinin təmin edilməsini nəzarətə götürməyi planlaşdırır. Bunun həyata keçirilməsi üçün 20 milyon dollar ayrılıb.**

- Bildiyimiz kimi, həm Fransada, həm də ABŞ-da böyük erməni diasporu var. Parisin Ermənistanla bağlı bu siyasətini, eləcə də Azərbaycana qarşı siyasətini qismən diasporanın himayə etdiyi şübhəsizdir. Yaxşı maliyyələşdirmələr nəticəsində bəziləri BMT tribunasından bütün dünyaya hayqırırlar ki, guya Azərbaycan az qala Ermənistana hücum edib, Qarabağda ermənilərin “soyqırımı” törədib. Aydındır ki, bu maliyyələşmənin məqsədi dar mənada eqoist məqsədlərə nail olmaqdır. Bu “fəryad” faktlarla manipulyasiya və siyasi təbliğatdan başqa bir şey deyil. Üstəlik, Makron Ermənistanı dəstəkləməklə ənənəvi olaraq erməni elektoratından səs toplayır.

Təbii ki, Fransadan Ermənistana silah tədarükü var. Mənəvi dəstək də var. Amma son 4 ildə, eləcə də bir il bundan əvvəl, Azərbaycanın İkinci Qarabağ müharibəsində qalib gəldiyi və ərazi bütövlüyünün tamamilə bərpa olunduğu Ermənistan-Azərbaycan münaqişəsi zonasında formalaşan reallıqlara münasibətdə bunların hamısı boşdur.

Qərb Ermənistan ordusunu NATO standartlarına keçirsə də, öz təlimatçıları ilə doldursa da, durmadan silahla təmin etsə də, bu, çətin ki, nəyisə dəyişsin, çünki Azərbaycan da hərbi potensialını daim artırır. BMT Baş Assambleyasında bu, heç bir perspektivi olmayan Fransanın siyasi hayqırtısıdır. Makronun gücü də son dərəcə etibarsızdır.

Eyni zamanda biz görürük ki, ABŞ Ermənistanda müxtəlif strukturları kifayət qədər uğurla darmadağın edir. O, miqyasına görə Fransadan daha ciddi oyunçudur. ABŞ Cənubi Qafqazda möhkəmlənmək istəyirlər. Qərb Ermənistanı öz altına düşməyə inandırır. Bu, çətin ki, ölkənin həyat səviyyəsini yaxşılaşdırsın. Amma Ermənistan dövləti üçün daha çox risklər olacaq. Bundan əlavə, Ermənistanın qonşuları Qərbin təsirinə və onun regionda möhkəmlənməsinə son dərəcə qarşıdır. Hətta Gürcüstan belə. Bunun Ermənistan Respublikası üçün üstünlüklərindən daha çox mənfi cəhətləri olacaq.

Bunun fonunda Ermənistan gələcəkdə bu və ya digər dərəcədə Qərbin dəstəyi ilə Qarabağda qisas almağa cəhd edə bilər. Ancaq yüksək ehtimalla, bu, ilk növbədə, özü üçün fəlakətlə başa çatacaq. Ermənistan bir ölkə kimi sonda sadəcə mövcudluğunu dayandıra bilər. Qərbin Ermənistanın xeyrinə və Azərbaycanın əleyhinə oyun oynamaq cəhdləri açıq-aydın uğursuzluqdur. Çünki Azərbaycan çox güclü oyunçudur və müstəqil dövlətdir. Onun gücü isə milli maraqları müdafiə etməkdə, çətinlikləri və onların öhdəsindən necə gəlmək yollarını aydın dərk etməkdə, həmçinin dövrün tendensiyalarını dərk etməkdə və kimin dost, kimin düşmən olduğunu başa düşməkdədir. Paşinyan əslində gələcəkdə qisas almaq ehtimalını gizli etiraf edir. Ona görə də Azərbaycanla tam hüquqlu sülh müqaviləsi imzalamır. Ermənistanın baş naziri hələ də bütün stullarda birdən oturmağa çalışır. İrəvanın qısa müddətdə Bakı ilə qısaldılmış sülh müqaviləsi imzalamağa hazır olması tezisini səsləndirməklə, hökumətinin guya sülh tərəfdarı olduğunu dünya ictimaiyyətinə nümayiş etdirmək istəyir. Ancaq sülh onun istədiyi kimi deyil, tam olmalıdır - gələcək üçün boşluqlarla yox.

Azərbaycan belə bir sazişin imzalanmasına qəti şəkildə razı olmayacaq. Birincisi, o, nəinki müharibədə qalib gəldi, həm də hamıya obyektiv şəkildə aydındır ki, Ermənistan sülh sazişindən son dərəcə əhəmiyyətli məqamları çıxarmağa çalışır. Yəni, gələcəkdə bu sənədin ləğvinə cəhd etmək və Qarabağa qarşı müxtəlif növ iddiaları bərpa etmək imkanı həmişə əldə etmək üçün ölkənin əsas qanununda Azərbaycan Respublikasına qarşı ərazi iddialarını istisna etmirəm.

Və əgər belədirsə, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının qaldığı başa düşülürsə, Bakının bu formada müqavilə imzalamasının nə mənası var? Təbii ki, heç bir mənası yoxdur. Ona görə də sülh müqaviləsi məsələsi müstəsna olaraq tam miqyaslı bağlanma tələb edir, başqa heç cür imkan yoxdur.

**- Bu gün Nyu-Yorkda ABŞ dövlət katibinin təşkilatçılığı və iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsi ilə bağlı növbəti görüşü keçiriləcək. Ondan nə gözləyirsiniz?**

- Əslində, heç nə. Bu, ABŞ-ın Cənubi Qafqazda nəyəsə qərar verdiklərini göstərmək üçün növbəti cəhdidir. Eyni zamanda, bunun arxasında əsl dolğunluq və məzmun yoxdur. Elə ötən gün İlham Əliyev bir daha Qərb dövlətlərini Ermənistanı qisas almağa təhrik etməkdə və Azərbaycana qarşı çirkin kampaniya aparmaqda ittiham etdi. Ona görə də Bakı ABŞ-ın vasitəçiliyi ilə imzalanan heç bir sülh müqaviləsinə qəti şəkildə razı olmayacaq. Yaxşı, niyə özünə problem yaratmalıdır? Azərbaycan müharibədə qalib gəldi. İqtisadiyyatda hər şey qaydasındadır. Buna görə də sakitliyini nümayiş etdirə və istənilən müqaviməti göstərə bilər. Və şərtlərini diktə edə bilər. Cənab Əliyev tamamilə düzgün siyasət aparır.

Ümumiyyətlə, obyektiv baxsaq, Ermənistan həqiqətən də Azərbaycanla tam hüquqlu sülh sazişi bağlaya bilərdi. Rusiya ilə münasibətləri yaxşılaşdıra bilərdi. Həmçinin, Belarus ilə. Ancaq bunların hamısı fantaziyadır.

**- Ötən gün Türkiyə prezidenti Nyu-Yorkda Paşinyanla görüşüb. O, bir tərəfdən Ankara ilə İrəvan arasında münasibətlərdə müəyyən irəliləyişlər olduğunu bəyan edib, digər tərəfdən isə BMT Baş Assambleyasının tribunasından açıq şəkildə bəyan edib ki, Türkiyə-Ermənistan münasibətlərinin qurulmasının uğuru İrəvan və Bakı arasında sülhün nə qədər tez əldə olunmasından da asılıdır.**

- Əslində bütün qonşular bir-biri ilə normal münasibətlər istəyir. Azərbaycanda da, Türkiyədə də, Gürcüstanda da bunu istəyirlər. Ermənistan öz sərhədlərini və qonşularının sərhədlərini tanımağa hazırdırmı, ticarət yollarını açmağa hazırdırmı, həqiqətən də sülhə hazırdırmı, yoxsa bu, sadəcə olaraq dəyişmə oyunudur- bu, onun üçün açıq sualdır. Əgər belədirsə, o zaman sülhdən ən çox faydalana biləcək ölkə Ermənistandır. Əks halda, ən çox itirən də o olacaq.

***Tərcümə - Elçin Bayramlı***



# Böyük Qayıdış: Cəbrayıla ilk köç karvanı

***31 ildən sonra Cəbrayıl şəhəri payızın ilk günlərində öz doğma sakinlərinə qucaq açdı. Bu köç əzəli sakinləri yurd yerləri ilə görüşdürdü. Torpaq da, insanlar da rahat nəfəs aldılar. İsti yay günündə şəhəri ah-nalə, qan tökə-tökə tərk edənləri bu gün Cəbrayıl yeni bir ab-hava ilə qarşılayır. Zəfər qazanmış xalqın nümayəndələri qan tökülmüş torpağa məğrurcasına, qürurla ayaq basdılar. Böyük Qayıdış proqramı üzrə Cəbrayıl şəhərinə ilk köç prosesi gerçəkləşdi. Cəbrayıl şəhərinə ilk köç 36 ailə olmaqla, 117 nəfərlə reallaşdı. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.***



Dörd il bundan əvvəl 27 il işğalda olan Cəbrayıl şəhəri azadlığına qovuşdu. Cəbrayıl şəhəri və rayonu 1993-cü il avqustun 23-də işğal edilib. İşğal vaxtı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları həcmində maddi ziyan dəyib, mənəvi ziyanı ölçməksə sadəcə, mümkün deyil. Cəbrayıllı məcburi köçkünlər respublikamızın 58 rayonu üzrə 2 minədək yaşayış məntəqəsində, eləcə də qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdır. İşğala məruz qalarkən rayonun 52 min nəfər əhalisi olub. Cəbrayıldan Birinci Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Rayonun 6 sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. 1050 kvadratkilometri əhatə edən Cəbrayıl rayonunun ərazisi, o cümlədən 100-ə yaxın kənd, 72 ümumtəhsil məktəbi, 150 mədəniyyət ocağı, 132 tarixi abidə işğal vaxtı vəhşicəsinə talan edilib, dağıdılıb.

Cəbrayılda qaynar mədəniyyət, elm-təhsil, maarif mühiti olub. Rayonda 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim çalışıb. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən çox eksponat olub.

Qeyd edək ki, Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi VIII əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhəri də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi.

### "İLK DƏFƏ OLARAQ MÜHARİBƏNİN BİRİNCİ HƏFTƏSİNDƏ ŞƏHƏR, RAYON MƏRKƏZİ AZAD EDİLMİŞDİ"

"Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!" Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 oktyabr 2020-ci il tarixli rəsmi "Twitter" səhifəsində yazmışdı. Həmin gün Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad olunmuşdu. "Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi", - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirmişdir: "Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi və bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir – Böyük Mərcanlı və Nüzgar kəndi və Füzuli rayonunun 4 kəndi və bu, bizim birinci uğurumuz idi".

Dörd il bundan öncə - 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri düşmən tapdağından azad olundu. Üçrəngli müqəddəs Azərbaycan bayrağı Cəbrayılda dalğalanır. Vətən Müharibəsi başa çatandan az sonra – 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdi. İlham Əliyev Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. Hər kəsə bəllidir ki, qədim Xudafərin körpüsünün düşməndən azad edilməsi və Müzəffər Ali Baş Komandanın bu körpüdə Azərbaycan bayrağını ucaltması böyük tarixi, siyasi önəm daşıyırdı. Çünki Xudafərin xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxıb. Çünki Xudafərin bizim üçün milli qürur məsələsidir. Prezident İlham Əliyev 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalını təsis edib. Qəhrəmanlıq və şücaət təcəssümü olan bu dövlət təltifi Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22744 hərbi qulluqçusuna verildi.

### CƏBRAYIL ŞƏHƏRİ YENİDƏN QURULUR

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri həyata keçirilir, Azərbaycan öz ərazilərini bərpa edir. Bu gün Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilən Cəbrayıl şəhəri yeni dövrünü yaşayır. Erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. Ölkəmizdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə yeni işıqlı həyata başlanılıb. Bu gün Cəbrayılda çoxsaylı bərpa və quruculuq işləri görülmüş, bu işlər bu gün də sürətlə davam etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin mayın 18-də Cəbrayıl rayonuna səfəri bir sıra hadisələrlə tarixin yaddaşına köçdü. Və Cəbarılın işıqlı gələcəyi üçn təməllər qoyuldu. Dövlət başçımız tərəfindən rayonun Karxulu kəndinin təməli qoyuldu. Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Karxulu kəndi şimaldan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti ilə əhatə olunub. 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur.

Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, Baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun iki tam orta məktəb və dörd uşaq bağçası tikiləcək. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub.

### 4740 NƏFƏR ƏHALİ ÜÇÜN 1185 FƏRDİ EV

Azərbaycan Prezidentinin Cəbrayıl rayonuna səfəri çərçivəsində Sarıcallı kəndinin təməlini qoyub. Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti, cənub-qərbdən və qərbdən Soltanlı kəndi ilə əhatə olunub. Baş planda kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur. Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun iki tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutulur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq.

Təməli qoyulan kəndlər sırasında Cəbrayıl rayonunun Maşanlı kəndi də olub. 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Bundan başqa, Baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və iki uşaq bağçasının tikintisi nəzərdə tutulub. Kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.

### ŞƏHƏRİN BƏRPASI VƏ İNKİŞAFI ÜÇÜN 4 MƏRHƏLƏ

Təsdiq edilmiş yeni Baş plana əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Qeyd edək ki, rayon ərazisində bir çox tarix-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimizdə infrastruktur layihələr, yeni yolların çəkilişi, yaşayış yerlərinin təməlinin qoyulması, iaşə müəssisələrinin açılışı və s. planlı şəkildə layihələr əsasında həyata keçirilir. Məqsəd insanların rahatlığının və firavanlığının təminatıdır.

Göründüyü kimi, işğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Bu gün isə əzəli sakinlərin səsi-sədası, toy-büsat çalğısı Füzulidən, Laçından, Şuşadan eşidilir. Qarabağ və Şərqi Zəngəzurumuz yenidən qurulur.

***Zümrüd BAYRAMOVA***

# Gənclərimizi dindən uzaqlaşdıran amil NƏLƏRDİR?

***Ölkəmizdə son zamanlar hər yaşda olan insanlarımız, xüsusən də gənclərimiz arasında dini qaydalara etinasızlıq və onlara biganə münasibət hökm sürür. İnsanların uzun müddət iman və əməl baxımından çox zəiflədikləri açıq bir həqiqətdir. İman zəiflədikdə, onu ləğv edən "ateizm", onu təhrif edən "deizm" kimi bir çox cərəyanlar meydana çıxdı və geniş yayıldı.***



Bundan əlavə, mənəvi tənəzzül, narkomaniya, alkoqolizm, psixoloqlardan kömək istəyənlərin, hətta intihar edərək həyatlarına son qoyanların acınacaqlı vəziyyəti ölkə olaraq bizi də dərindən yaralayır. **İnsanlarımızı, gənclərimizi dindən uzaqlaşdıran səbəblər hansılardır?**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Burada iki istiqamət var: Xarici səbəblər, daxili səbəblər.

Məlum olduğu kimi, ömür sürətlə keçir. Kommunikasiya şəbəkələrinin inkişaf etdiyi əsrdə insanlar arasında ünsiyyət qaçılmazdır. Texnoloji inkişaflar və onların müsbət və ya mənfi təsirləri gəncləri bir yana qoyaq, yetkin insanlarda belə asanlıqla müşahidə





edilə bilər. Amma gənclər texnologiyanı daha tez mənimsədiklərindən mənfi hadisələr təbii olaraq onlara daha çox təsir edir. Rəqəmsal ünsiyyət vasitələrində informasiya, filmlər, oyunlar və s. sosial media kanalları, "YouTube" kanalları, "Facebook" mühitləri, "Instagram" hesabları istər-istəməz gəncləri dərhal içəri çəkir. Böyüklərin isə "Bunlar zərərlidir, belə mühitlərə girməyin!" deməsi, həll yolu deyil. Müasir dünyada xüsusilə gənclərin bu cür ünsiyyət mühitlərindən uzaq durması mümkün deyil. Gənclərlə tez təmasda olan, onlarla tez maddi-mənəvi əlaqələr quran dini məhv edən missionerlər də xalqımızın dindən uzaqlaşmasına səbəb olur. Xüsusilə böyük şəhərlərdə "çağdaş" və "müasirlik" adı ilə təbliğat aparan və öz sahələrində kifayət qədər uğur qazanan insanlar var. Çünki gənclər dəyişikliyi sevir və yeni axtarışlar istəyirlər. Onların bir çoxu özbaşına və azad davranışları xoşlayır.

-Bəzi gənclər özünə uyğun örnək tapa bilmədiklərindən nəyə inanıb, nəyə inanmamaq barədə dəqiq qərar verə bilmirlər və lazımi mənbələrdən istifadə edə bilmirlər. Nəticədə mühitə uyğun olaraq dini seçimlər edirlər.

-Bəzi insanlar tale xətti ilə insanların yaşadıqlarına üsyan edərək dindən qopur. Sosial media mühitlərində "dinsizlik" o qədər təşviq edilir, ateizm və deizm o qədər təbliğ olunur ki, ağlında, qəlbində alternativi olmayan gənclər dərhal özlərini atıb deyilənlərə təslim olurlar. Bu cür gənclərin əslində din və onlara təklif olunanlar haqqında tam bilgiləri yoxdur. Soruşsan, arxasınca getdikləri cəfəngiyyatlara heç nə deyə bilməzlər. O azğın ideologiyalar o qədər dəbdəbəli örtüklərlə izah olunur ki, gənc həmin bəzək və təşviqə aldanır.

Bir sözlə, dindən uzaqlaşan gənclərin əksəriyyətinin dini bilikləri zəif, nöqsanlı və qeyri-kafidir. Onlar dini həyat şərtlərinə zidd və köhnəlmiş görür və onu absurd hesab edir. Populist mədəniyyət insanlara hər zaman azad olmağı, ayaq üstə durmağı öyrətdiyindən gənclər dinin onların həyatına qarışmasını istəmirlər. Onlar dini "istədikləri kimi" yaşamaq üçün bir manea olaraq görürlər. Bu səbəblərə görə dini müasir hesab etmirlər, onu "qədimlərin klassik köhnəlmiş fikirləri" hesab edirlər. Təəssüf ki, bu kədərli mənzərədir.

Bəli, nəticədə biz deyirik ki, gənclərin inancını, əqidəsini zəiflədən, hətta korlayan bütün mənfi cəhətlərə müsbət alternativlər təklif edilməlidir. Böyük İslam Dininin gözəllikləri, mömin olmağın bu gün vacib və düzgün yol olması, imanın insana verdiyi rahatlıq, duaların insana hansı enerji, təmizlik və ilahi güc qatması, gözəl əxlaqın əhəmiyyəti, çağın ən son texnologiyalarından istifadə edərək məzmuna daxil edilməlidir. İnkarçı hərəkatların təhrifləri açıq şəkildə ortaya qoyulmalıdır. Çağımızın ünsiyyət üsulları ilə gənclərə çatmaq üçün bir yol təmin edilməlidir.

### Ailələrin dini əsaslarının zəifliyi

Bəzi ailələrdə dini strukturun zəifliyi gənclərin düzgün təhsil və düzgün tərbiyə almasına mane olur. Bu məsələ onlarla dini təlimlər arasında uçurum yaradır. Ailələrin dini əsaslarını gücləndirməklə bu uçurumu aradan qaldırmaq lazımdır. Bütün fərdlərin iman səviyyəsi eyni olmadığından və mənəvi, maddi və dünyəvi məsələlər dini mövzulardan daha cəlbedici olduğundan bəzi fərdlərdə və müəyyən zaman kəsiyində dindarlığın zəifləməsi normaldır. Dində xurafat meylinin yayılması da insanları dindən uzaqlaşdıran səbəblər arasındadır.

### Mədəni hücumlar

Din düşmənləri və kafirlərin mədəni hücum nümunəsində formalaşan sui-qəsdləri mənəviyyatdan qaçmağa təsir edən amillərdəndir. Bu hücumun əsas məqsədi cəmiyyətdə və xüsusilə gənclər arasında korrupsiya, laqeydlik və dinsizliyi yaymaqdır. Bu, bəzən şübhə uydurmaqla, dini məsələləri təhrif etməklə, həqiqəti gizlətməklə baş verir.

### 2018-ci ildə Türkiyədə jurnalistin tələbə qızla müsahibəsindən bəzi nüanslar

Merve Din Mədəniyyəti və Etika müəllimidir. 20 yaşının sonlarındadır. O, özünü aqnostik kimi təsvir edir. "Mən bilmirəm Allah var, ya yox, bu artıq məni o qədər də maraqlandırmır" deyir. Merve ilə ilk olaraq Beyoğluda bir kafedə tanış olduq. Qırmızı çadra taxır. "Bu baş örtüyü indi məni müsəlman olaraq təyin edən yeganə şeydir" deyir. O, həm ailə, həm də işinə görə çadrasını çıxarmadığını deyir. "Bəlkə 1-2 ildən sonra baş örtüyü ilə vidalaşa bilərəm, amma indi buna ehtiyac hiss etmirəm" deyir.

Mervenin atası imamdır. O, mühafizəkar ailədəndir. İmam-Hatip orta məktəbini bitirib. İlahiyyat fakültəsində oxumaq istəmədiyi üçün heç olmasa müəllim olacağını düşünərək Dini Mədəniyyət və Etika müəllimliyi ixtisası üzrə təhsil almağa qərar verdi. O, dinlə bağlı araşdırmalarının həmin dövrə təsadüf etdiyini deyir: "Mən radikal müsəlman idim. Bir neçə il əvvələ qədər kişilərlə əl ilə görüşməzdim. Özümü müsəlman olaraq təyin etdim və həyatımı belə yaşamağa çalışdım. Beş vaxt namazımı qılırdım. Oruc tuturdum, Quran oxuyurdum, iltihab, hədis kimi işləri tamamlamağa çalışırdım. Təfsir və hədis dərslərinə gedirdim".

Merve illərlə sorğu-sual nəticəsində dinlə münasibətinin dəyişdiyini və müəyyən qırılma nöqtələri yaşadığını göz yaşları içində izah edir: "Heç vaxt müəllim olmaq istəməmişəm. Amma nədənsə müəllim oldum. Bu, məni çox sarsıtdı. İnsanlar sevincdən ağlayanda, mən kədərdən ağlayırdım. Seçimlərimi edərkən ağlayırdım və dua edirdim. Müəllim təyin olunmağı tamamilə Allaha həvalə etdim. Təyin olunmayacağıma o qədər ürəkdən inanırdım, amma bu baş verəndə məni alt-üst etdi. Həyatım alt-üst oldu. Güvəndiyim, inandığım o ilahi mövqe sarsıldı. Açığı, ilk şübhələrim belə başladı. Allah mənim üçün ən böyük sığınacaq idi, amma daha sığına bilməyəcəyimi və nə qədər istəsəm də dualarımın qəbul olunmayacağını açıq-aydın görüb, fikirlərimi sarsıtdı".

Bütün bu proses Merve üçün asan olmadı. Ətrafından və dostlarından uzaqlaşdı. Ailəsi ilə dərdlərini, onu narahat edən suallardan danışa bilmirdi. Getdikcə tənhalaşırdı. Bir səhər o, böyük bir depressiyanın qucağında oyandı. Saatlarla ağladı. Dedi ki, heç olmasa dua edim. Sonra baş verənləri belə izah edir: "Mən beynimdə Allahla danışmağa başladım: "Bax, mən bu vəziyyətdəyəm, mənə çıxış yolu göstər". Amma bunu deyərkən anladım ki, namaz qılarkən həmsöhbətim olub-olmadığına şübhə ilə yanaşırdım və "bu gün ya dəli olaram, ya da intihar edəcəm" deyə düşündüm. Səhər oyandım. Sanki o gün, o gecə heç olmamışdı. Sonra oturub fikirləşdim. Dedim, sözün əsl mənasında inanmıram. İmanın şərtlərini düşündüm. Dedim ki, mən cənnət və cəhənnəmə inanmıram". Merve əvvəlcə namazı dayandırdı. Sonra da duanı. Ailəsi hələ də nə baş verdiyini bilmir. "İlk dəfə hicabsız bir kişinin qarşısına çıxanda özümü həm çox rahat, həm də çox qəribə hiss etdim".

Merve ilə yenidən evində görüşəndə o, bizi başı açıq qarşılayır. Aramızda bir kişi də var ki, onu "naməhrəm" adlandırmaq olar. O, daha evdə hicab taxmamaq qərarına gəlib. Prosesi belə təsvir edir: "Dedim ki, əgər Allahı və dini inkar edəcəyəmsə, bu pərdəni çıxarmalıyam. Amma başa düşdüm ki, bunu edə bilmərəm. Mən dini mədəniyyət müəllimiyəm. Bu edilə bilər, amma mən Ya müəllimlikdən əl çəkə bilmirəm, ya da bu məsələ ilə məşğul ola bilmirəm.

"İlk dəfə şüurlu şəkildə hicabsız kişinin qarşısına çıxanda özümü çox rahat və həm də çox qəribə hiss edirdim. Amma indi özümü çox rahat hiss edirəm. Çünki indi özümü belə müəyyənləşdirirəm. Dərs oxuyanda bəzən uşaqlar sual verirlər. Müəllim, doğrudanmı hicab taxmaq lazımdır? Böyüyəndə saçım görünsə, günah olarmı? "Hal-hazırda buna qərar verməyiniz üçün heç bir vəziyyət yoxdur", "18 yaşına çatanda nə istəsən edə bilərsən" deyirəm. Belə cavab verməl məni rahatlaşdırır".

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini Hacı Fuad Nurullayev:** "Gənclər İslamdan niyə uzaqlaşır? Allahtəala şükürlər olsun onun cəlalına bizə həm uşaqlıq, həm də gənclik ömrü nəsib etdi.

ARAŞDIRMA

Ardı Səh. 13

# Gənclərimizi dindən uzaqlaşdıran amil NƏLƏRDİR?



Əvvəli-Səh-12

Bugün bizim zamanla mühitdə ətrafımızda böyüyən və formalaşan gənclər var. Düşünürəm ki, mən böyüyən zamanla indiki zaman arasında xeyli fərqlər var. Biz necə deyərlər Sovet hökumətinin şinelindən çıxmış insanlarıq. Belə bir ifadə işlədirlər. Yəni, Sovet hökumətini görmüş adamlarıq. O zaman din qadağan idi birmənalı, məscidlər dağıdılmışdı, ya anbarlara çevrilmişdi, dini məktəb və mədrəsələr yox idi. İndi İlahiyyat İnstitutuna kimi elm ocaqları fəaliyyət göstərir. Mən deməzdim ki, indi gənclər İslamdan, və yaxud dindən uzaqlaşır. İndi maşallah, sağlam səviyyədə dini bilən, dinə meylli və dininə bağlı gənclərimiz çoxdur. İndi istisnalar təbii ki var və bəzi neqativ hallar biz görürük, onun da səbəbi var. Səbəbi nədir? Məsələn, bugün dünya açıqdı, sərhədlər açıqdı, gənclərimiz dünyanın hər yerinə gedib gələ bilirlər və əllərində mobil imkanlar var. Məsələn, kütləvi informasiya vasitələri ilə istənilən səviyyədə əlaqələri, məlumatları və istifadə etmək imkanları var. Bunlar bir çox mənfi və neqativ hallara səbəb ola bilir. Bu az bir saydadır, az bir faizdir.

Amma bugün savadlı, ziyalı, dünyagörüşü zəngin, dindən məlumatı, xəbəri olan insanlar çoxdur. Məsələn, bizim yaşda olan və məndən biraz cavan olan insanlar tanıyıram ki, onlar o zaman ki dini məktəb, mədrəsə olmayıb, dini ədəbiyyat olmayıb və dindən xəbərləri yoxdur. Müasir gəncləri məktəbəqədər kim yetişdirməlidir? Təbii ki, valideynlər. Valideyn din bilməyəndə onun övladı dini hardan bilər?! Bugün də biz dünyəvi, demokratik bir dövlətdə yaşayırıq. Konstitusiyamızda din dövlətdən ayrı olsa da, amma dini öyrənmək üçün imkanlar, məkanlar, məscidlərdə kurslar var. İnsan özü sadəcə biraz araşdırma aparsa, müxtəlif kanallardan, saytlardan düzgün dini maarifləndirmə əldə edə bilər.

Sadəcə olaraq bu məsələnin biraz həssas və diqqətli olmaq lazımdır ki, çünki din adından da danışan insanlar çoxdur. Müəyyən "YouTube" kanalında, "TikTok"da, bir çox yerdə din adından, dindar adından çıxış edənlər var. Hər birinə qulaq asmaq, hər birini düzgün qəbul etmək lazım deyil. Ona görə də bugün istər Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətində, İslam Universitetinin indiyə kimi fəaliyyəti, İlahiyyat İnstitutunun fəaliyyəti və Azərbaycanın gözəl, savadlı din xadimləri, İslamı bilən alimləri var. Cavanların içərisində, orta yaşlıların içərisində beləlləri var. İnsanlar müəyyən məsələlərdə dini öyrənmək üçün cavanlarımıza mən tövsiyə edərdim ki, belə alimlərə yönəlsinlər. Məsələn, məscidlərdə, xüsusən də imamlarımız var ki, onlar savadlı insanlardır. Bir-birinə nisbətən savad fərqləri var. Amma bugün gözəl, savadlı din xadimlərimiz var, məscidlərdə imam, imam müavini kimi fəaliyyət göstərirlər. Onlardan bir şeylər öyrənsinlər, onlara müraciət etsinlər. Amma hər zamanda təbii ki



fərqli insanlar olub, bizim zamanda da var. Amma şükürlər olsun mən dua edirəm.

Qənaətim budur ki, bugün gəncliyimizin əksəriyyəti dindən xəbərdardır, dinlə maraqlanır və dinə həvəs və sevgisi var. Amma Bakı mərkəzdir, paytaxtdır. Bakıda bəzi mənfi halları biz görürük, müşahidə edirik. Bu da təbii haldır. Mən onu görərək narahat olmuram. Amma bugün mən gəncliklə işləyirəm və İlahiyyat İnstitutunda da fəaliyyət göstərirəm və başqa universitet tələbələri ilə həmsöhbət olaraq təmasda oluram. Amma görürəm ki, dinə bağlı gəncliyimiz var. Allah bizim gəncliyimizi qorusun, Allah-təala gələcəyimizi müvəffəq etsin İnşallah, Amin".



**Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov:** "Gənclər dindən niyə uzaqlaşırlar? Hər şeydən öncə biz buna baxmalıyıq ki, bu iddia nə qədər statistikanı ehtiva edir. Çünki gənclərin dindən uzaqlaşması böyük bir sosial referendumun nəticəsi ola bilər. Biz görürük ki, məscidlərdə əksər namaz qılanlar şükr Allaha, gənclərdir. Gənclərin qəlbləri, ruhları elastikdir, yaşlılar kimi kobud olmayıb, qabalaşmayıb. İlahi idrak gənclərin ruhuna daha tez təsir edir. Amma hətta bu iddia doğru olsa belə gənclərin bu günümüzdə, müasir dünyamızda dindən uzaqlaşması o qədər məntiqi nəticəyə oxşayır ki, biz əksini daha çox sual verməliyik ki nə əcəb gənclər dinə bu qədər yaxınlaşırlar. Çünki biz kompleks şəkildə gənclərin dindən uzaqlaşması üçün əlimizdən gələni edirik. Bizim mətbuat orqanlarımız, televiziyamız, radiomuz, sosial şəbəkələrimiz, dünyamız, iqtisadi karyeraların təbliğatı, filmlərimiz, tamaşalarımız, musiqilərimiz dindən uzaqlaşmaq üçün, dini ruhdan uzaqlaşmaq üçün gənclərə gecə-gündüz təzyiq göstərirlər. Mənəvi şəkildə gənclərimizin beyni, ruhu terror olunur. Belə bir vəziyyətdə gənclərin dindən uzaqlaşmasına təəccüblənmək lazım deyil. Təəccüblənmək lazımdır ki, Allah-təala necə öz nurunu daxil edir gənclərin qəlbinə ki, gənclər dinə meyllənirlər, dini ədəbiyyatı oxuyurlar, məscidlərə üz tuturlar. 44 günlük müharibədə bu şəhadət ruhu, şəhidlik ruhu gənclərimizdə necə formalaşdı, necə onlar Ya Hüseyn deyərək meydanlara axışdılar, Allahu Əkbər deyərək meydanlara axışdılar?! Necə onlar dini ədəbiyyatı oxuya-oxuya dini ruhda şəhid olurdular, mərsiyə deyirdilər?! Özü də yadınızdadırsa, pandemiya dövrünə təsadüf edirdi. Məscidlər münasib deyildi Məhərrəm ayının keçirilməsi üçün. Biz sosial şəbəkələrdə gördük ki, gənclərimiz müharibədə dəstə-dəstə Ya Hüseyn deyərək əməliyyatlara gedirdilər. Bu mənə elə gəlir ki, Allahın müdaxiləsidir. Dünyadakı gənclərin mənəvi terroruna qarşı bir mübarizədir Allah-təalanın ki, siz nə edirsinizsə edin mən öz işimi görəcəm. Quran'i Kərimdə də deyilir ki onlar istəyirlər öz danışıqları, ağızları ilə mənfi ruh üfürməklə Allah nurunu söndürsünlər. Amma onlar xoşlasalar da, xoşlamasalar da Allah-təala öz nurunu tamamlayacaq".

**Bəs, bu neqativlərə qarşı nə etmək olar?**

- Həmin vasitələrdən şüurlu şəkildə istifadə etmək tövsiyə oluna bilər.
- Rəqəmsal cihazların zədələnməsindən qorunmaq üçün filtr ekranı əlavə edilə bilər. Ancaq bunun bəzən mənfi təsirləri ola bilər.
- Ən ağıllı iş müsəlmanları o kanallara daxil etməkdir. Təbii ki, bu iş üçün böyük zəhmət və fədakarlıq lazımdır. Müsəlmanlar da şüurlu şəkildə sosial media mühitlərində inandırıcı, uyğun və dəqiq məzmuna malik məlumatlardan, kiçik ölçülü filmlərdən və videolardan istifadə etməli, populist bölgələrdə yayılan bir çox absurd və təhrif fikirlərə dərhal əks cavablar verməlidirlər. Bu işə xüsusi diqqət yetirilməlidir.

***Ayşən Vəli***



# Trendyolda qiymətlər "oynayır"...

**Mətanət Məmmədova**

***Söhbət Trendyolun Azərbaycan təslimatından gedir. Ötən il Trendyolun Azərbaycana birbaşa çatdırılma xidməti yarananda, bu, hər kəsin ürəyincə olmuşdu. Çünki müxtəlif karqo şirkətləri alıcılara çəkiyə görə istədiyi qiyməti tətbiq edirdisə, yeni tətbiqlə çəkisindən asılı olmayaraq bütün sifarişlər eyni qiymətə, əvvəlcə 49.99, sonra isə 59.99 türk lirəsi ilə sahibinə çatdırılırdı ki, bu da hər təbəqədən olan insanlara istədiyini əldə etməkdə əlçatanlığı təmin edirdi.***

Təbii ki, bu prosesin belə davam edəcəyinə ümid yox idi, təəssüf ki, belə də oldu. Ötən ilin axırlarından artıq daşınma xərcləri yavaş-yavaş artırılmağa başlandı. Hazırda bəzi hallarda daşınma qiymətlərində bir qəribəlik müşahidə olunur. Məsələn, Tendyol Azərbaycana birbaşa çatdırılma xidməti 21 parçadan ibarət tort-kek dəstini də, kiçik bir ətir şüşəsini istifadəçiyə də 4.01 qəpiyə çatdırır. Bir ütünü 15 manata, böyük bir qazan dəstini isə 19.05 qəpiyə gətirir. Bu gün ən ucuz daşınma xərci 80 türk lirəsi civarındadır. Bu isə göründüyü kimi bəzən ağır, həcmli əşyalara da tətbiq olunur.

Söhbətin bu yerində onu da vurğulayaq ki, Trendyolun Türkiyədə və ölkəmizdə bu qədər məşhur olmasında əsas səbəb həm də sezon sonlarında və xüsusi günlərdə təşkil edilən böyük endirimlərdir. "Black Friday" zamanı həyata keçirilən 70-80-90 faizlik endirimlər və eyni zamanda Trendyol-un dili ilə desək "Möhtəşəm Sezon Endirimləri" bu platformanı daima aktiv saxlamağa kömək etməkdədir. Eyni zamanda Trendyol-da müxtəlif funksionallıqlar və məmnuniyyət proqramları da həyata keçirilir. İnsafən, son vaxtlar endirimli günlərin sayı da çoxalıb. Eyni zamanda tez-tez 30-35 faizli endirim kodları da verilir.

Məhsulların çatdırılmasında son vaxtlar bəzi söz-söhbətlər də gəzir, səhv göndərilən məhsullar kimi. Ancaq bütün bunları Trendyol işçiləri həll etməyə çalışır və hər hansı səhv göndərilən, sınıq məhsul üçün sərf olunan vəsait geri ödənilir.

Bütün bunları qoyaq bir kənara, keçək əsas məsələyə. Əsas məsələ isə odur ki, Trendyol Azərbaycana birbaşa çatdırılma xidmətində qiymətlər oynayır. Nə mənada oynayır, mən deyim, siz də dinləyin. Məsələn, bir əşya və ya paltarı xoşladın, onu səbətinə əlavə etdin, qiymətini də yaddaşına yazırsan və səbirsizliklə endirim kodu verilməsini gözləyirsən ki, istifadə edib, məhsulu alasan. Bir də baxırsan ki, məhsul bir an içində 999 türk lirəsindın qalxıb oldu 2329 lirə və sair. Və yaxud da səbətə bir məhsul əlavə edirsən, çox keçmir qiymət dəyişir. Məsələn, 50 manatlıq 4 parçadan ibarət kek qabı dəstinin hazırda qaldırılıb 100 manatdan artıq olması kimi. Sual olunur, orta əmək haqqına işləyən hansı istifadəçi 100 manata 4 ədəd kek qabı ala bilər və yaxud da almaq fikrinə düşər?

Belə qənaətə gəlmək olur ki, sanki favori və səbətə bir nəzarət funksiyası həyata keçirilir. Burada sən məhsula çatmaq istəyərkən o səndən uzaqlaşdırılır. Yəqin bu problemlərlə qarşılaşan istifadəçilər az deyil.

Başqa bir məsələyə də nəzər salaq. Endirim kuponu verilib. Səbətə məhsulları əlavə edib ödəməyə keçdiyin an baxırsan ki, bayaqdan bəri 50 manat ödəməli olduğun halda, qiymət qalxıb oldu 80-100 manat. Odur ki, düşünməyə bilmirsən ki, favori və səbətlər dəqiq şəkildə izlənir və qiymət oynatmaları həyata keçirilir. Bütün bunlar isə təbii ki, Trendyol istifadəçiləri tərəfindən birmənalı qarşılanmır. Hətta əsəblərinin pozulmasından şikayət edən istifadəçilər də var.

Düşünürəm ki, bu sistemə əməlli-başlı nəzər salmaq lazımdır. Hər kəs istər ki, Trendyol Azərbaycan tətbiqində bu kimi problemlər olmasın. Ümidvarıq ki, buna cavabdeh olan şəxslər tezliklə bu məsələnin həlli yollarını axtarıb tapacaq və istifadəçilərin hər biri bu tətbiqdə belə qəribəlik, anlaşılmazlıq, qiymət oynatmaları ilə qarşılaşmayacaq.

# İran, yoxsa Qərb təhlükəlidir?

***İranın yeni rəhbərliyi Qərblə münasibətləri bərpa etməyə və əvvəllər ABŞ və müttəfiqləri ilə qarşıdurmaya qısa möhlət verən 2015-ci il nüvə sazişinə qayıtmağa çalışır. İran prezidenti Məsud Pezeşkian BMT Baş Assambleyasının 79-cu sessiyasındakı çıxışında əsas məqsədi qlobal güclərlə "mənalı tərəfdaşlıqlar qurmaq" adlandırıb. Bu arada ABŞ avropalı tərəfdaşlarından fərqli olaraq Tehrana yaxınlaşmağa tələsmir. Respublikaçıların prezidentliyə namizədi Donald Tramp hətta İranın onun həyatı üçün təhlükə yaratdığını bildirib.***



BMT Baş Assambleyasının 79-cu sessiyasının əsas xəbər meykerlərindən biri İran prezidenti Məsud Pezeşkian və ölkənin Xarici İşlər Nazirliyinə rəhbərlik edən Abbas Araqçı olub. İslam Respublikasının yeni rəhbərliyi Qərblə münasibətlərdə böhrandan çıxış yolları axtarmağa başlayıb. Təsadüfi deyil ki, Fələstinin HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin iyulun 31-də Tehranda öldürülməsinə cavab olaraq İran İsrailə qarşı elan edilmiş cavab hərəkətini hələ də həyata keçirməyib.

Tehranın qəti sülhsevər tonunu Nyu Yorkda prezident Pezeşkian təqdim edib. İran liderinin çıxışında sələflərinin istifadə etdiyi sərt ritorika əksinə, ABŞ və müttəfiqləri ilə barışıq çağırışına çevrilib. "Amerika xalqına müraciət etmək istərdim, sərhədləriniz boyu bazalar tikən İran deyil, ölkənizə qarşı sanksiyalar tətbiq edən və bütün dünya ilə ticarət əlaqələrinə mane olan İran deyil, tibbə, qlobal maliyyə sisteminə çıxışı məhdudlaşdıran İran deyil. Əksinə, Bağdad hava limanında İranın görkəmli komandirini öldürən ABŞ olub", - prezident Pezeşkian öz arqumentlərini sadalayıb. Belə ki, o, 2020-ci ildə İran İslam İnqilabı Keşikçiləri Korpusunun Əl-Qüds xüsusi təyinatlılarının komandanı, general Qasım Süleymaninin İraq paytaxtının hava limanına raket hücumu zamanı öldürüldüyü hadisəni xatırladıb.

"Daha yaxşı gələcək qurmaq üçün İran dünya gücləri və qonşuları ilə iqtisadi, sosial, siyasi əlaqələri və təhlükəsizlik məsələlərini bərabərhüquqlu əsaslarla inkişaf etdirməyə hazırdır", - deyə İran lideri əsas vəzifəsini açıqlayıb. Onun sözlərinə görə, Qərbin İranın mesajına cavabı gələcək konstruktiv əməkdaşlıq üçün zəmin yaratmaq üçün yeni sanksiyaların tətbiqindən imtina və mövcud məhdudiyyətlərin aradan qaldırılması olmalıdır.

## Pezeşkian da Ukrayna böhranından danışdı

"İran müharibəyə qarşıdır və Ukraynada döyüşlərin təcili dayandırılmasının vacibliyini vurğulayır. Biz bütün sülh təşəbbüslərini dəstəkləyirik və inanırıq ki, dialoq bu böhranı həll etməyin yeganə yoludur".

BMT Baş Assambleyasının tribunasından çıxış etməzdən əvvəl prezidentin Tehranda "Ukraynaya qarşı təcavüzü heç vaxt bəyənmədiyi"ni deməsi, eləcə də Ukraynadakı vəziyyəti danışıqlar masası arxasında Avropa və ABŞ ilə müzakirə etməyə hazır olduğunu bəyan etməsi geniş rezonansa səbəb olub. Bu bəyanatları şərh edən Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bunları "İranın suveren mövqeyi" adlandırıb. "Biz öz mövqeyimizi və Ukrayna ətrafındakı bu münaqişə ilə bağlı hər şeyi iranlı dostlarımıza izah etməyə davam edəcəyik", - deyə cənab Peskov əlavə edib.

Lakin ABŞ prezidenti Co Baydenin BMT Baş Assambleyasının tribunasından çıxışı göstərdi ki, İran liderinin göndərdiyi siqnallar hələ də Vaşinqtonda lazımi təəssürat yaratmayıb. "Biz birlikdə... İranın heç vaxt nüvə silahı əldə etməməsini təmin etməliyik" deyən Co Bayden "İran təhlükəsi ilə mübarizəni davam etdirməyə" çağırıb. Nüvə sazişinin - ABŞ prezidenti Barak Obamanın hakimiyyəti dövründə imzalanmış və daha sonra onun Ağ Evdəki varisi Donald Tramp tərəfindən rədd edilən Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) icrasına qayıtmaq imkanları mövzusu müzakirə edilib. BMT Baş Assambleyasının 79-cu sessiyasında dəfələrlə.

Qərb İrana necə kollektiv cavab axtarır

"İran və dünya gücləri 2015-ci ildə bizim hüquqlarımızın tanınması və JCPOA çərçivəsində sanksiyaların ləğvi müqabilində İrana öz nüvə obyektlərinə ən yüksək səviyyədə görünməmiş müşahidə aparmağa imkan verən tarixi razılaşma əldə ediblər. İranın bütün öhdəliklərinə əməl etməsinə baxmayaraq, Tramp birtərəfli qaydada bu sazişdən çıxıb. Əgər öhdəliklər tam yerinə yetirilərsə, İran JCPOA iştirakçıları ilə əməkdaşlığı davam etdirməyə hazırdır", – prezident Pezeşkian BMT Baş Assambleyasının tribunasından İranın mövqeyinin son variantını formalaşdırıb. "İran heç bir şəkildə nüvə silahı əldə etmək niyyətində deyil. Son 200 il ərzində biz heç bir münaqişəyə başlamamışıq, biz sadəcə sülh, təhlükəsizlik və sülh şəraitində yaşamaq istəyirik", - o, daha sonra BMT-nin baş katibi Antonio Quterreşlə görüşü zamanı da bunu bir daha deyib.

Məsud Pezeşkian Avropa Şurasının sədri Şarl Mişel və Fransa prezidenti Emmanuel Makronla görüşləri zamanı eyni tezisi təkrarlayıb, Avropa diplomatiyasının rəhbəri Josep Borrell isə İranın xarici işlər naziri Abbas Araqçi ilə əlaqə yaratmaq niyyətində olduğunu bildirib. "Mən yeni naziri tanıyıram, çünki keçmişdə onunla işləmişəm. Biz hər şeyi, xüsusən də nüvə sazişini və Rusiyaya dəstəyi müzakirə edəcəyik. Biz İranla kommunikasiya xətlərini açıq saxlamalıyıq", - deyə cənab Borrell BMT Baş Assambleyasının kuluarlarında bildirib.

Bütün bunların fonunda Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) rəhbəri Rafael Qrossi Reuters agentliyinə müsahibəsində yaxın həftələrdə İrana səfər etmək niyyətində olduğunu açıqlayıb. nüvə proqramı. Cənab Qrossinin sözlərinə görə, Nyu-Yorkdakı müzakirələrdən sonra o, İran nümayəndələrinin MAQATE ekspertləri ilə "substantiv şəkildə" əməkdaşlığa hazır olduğunu hiss edib. Rafael Qrossi qeyd edib ki, son illər MAQATE İranın nüvə proqramına nəzarət etmək imkanını qismən itirib və o, bu məsələni Tehranda müzakirə etmək niyyətindədir.

Rafael Qrossi CNN-ə başqa bir müsahibəsində ABŞ-ın buna razılıq vermədiyi vaxta qədər İranla nüvə sazişinə qayıtmağın qeyri-mümkün qalacağı fikrini bildirib. Eyni zamanda, MAQATE rəhbəri təklif edib ki, İran və ABŞ arasında çox güman ki, vasitəçilər vasitəsilə qapalı danışıqlar gedir.

## ABŞ Tehranı cəzalandırmağın yollarını axtarır

"The Wall Street Journal"ın Qərb diplomatlarına istinadən qeyd etdiyi kimi, ABŞ-da keçiriləcək prezident seçkilərindən əvvəl sanksiyaların ləğvi və nüvə sazişi üzrə danışıqların aparılması ehtimalı azdır. Eyni zamanda, Amerika rəsmilərinin qeyd etdiyi kimi, Kamala Harris prezidentlik yarışında qalib gələrsə, İranla nüvə razılaşması mümkün olacaq. Lakin Donald Tramp prezident olarsa, vəziyyət tamamilə fərqli olacaq. Respublikaçı namizədin Tehranı iblisləşdirməyə meylli olduğunu təsdiqləməsi Tehranın onun həyatı üçün təhlükə yaratdığına dair son bəyanatı olub. "İran mənim həyatımı ciddi şəkildə təhdid edir... O, artıq addımlar atıb və uğursuzluğa düçar olub, lakin yenidən cəhd edəcək", – Donald Tramp Truth sosial şəbəkəsində gizli mesajında yazıb.

## İrana qarşı Qərblə sanksiyaları necə yaranıb?

1979-cu ilin noyabrında İslam İnqilabına və Tehrandakı səfirliyin ələ keçirilməsinə cavab olaraq ABŞ İrana qarşı ilk sanksiyaları tətbiq etdi. İranın bütün dövlət aktivləri və Amerika banklarındakı qızıl ehtiyatları dondurulub, biznes əlaqələri qadağan edilib.

1984-cü ildə Livanda İranın dəstəklədiyi silahlılar ABŞ sülhməramlılarının kazarmasını partladıblar. Buna cavab olaraq Amerika İranı terrorizmi dəstəkləyən dövlətlər siyahısına əlavə etdi və bu, Amerikadan yardım almağı qadağan etdi. 1987-ci ildə ABŞ İrandan neft və digər malların idxalını qadağan etdi. 2005-ci ildə ABŞ-ın nüvə proqramına cavab olaraq İran banklarına, şirkətlərinə və fiziki şəxslərə qarşı yeni sanksiyalar tətbiq edilib.

2006-cı ilin dekabrında BMT Təhlükəsizlik Şurası İranın uranın zənginləşdirilməsini dayandırmaqdan imtina etdiyinə görə sanksiyalar tətbiq edib. Bunlara nüvə sahəsində material və texnologiyaların tədarükünə qadağa, habelə bir sıra fiziki şəxslərin və şirkətlərin aktivlərinin dondurulması daxildir. 2007, 2008 və 2010-cu illərdə Təhlükəsizlik Şurası İrana qarşı daha üç sanksiya paketi qəbul edib.

2010-cu ilin iyulunda Aİ İranın nüvə proqramı və insan haqlarını pozduğuna görə ona qarşı sanksiyalar tətbiq edib. Məhdudiyyətlərə İranın neft və qaz sənayesinə texnologiya və investisiyaların ixracına qadağa, şirkət aktivlərinin dondurulması və səyahət qadağaları daxildir. 2012-ci ildə Aİ sanksiyaları genişləndirilib, xam neft, neft məhsulları və qaz idxalına qadağa qoyulub və İranın SWIFT bank sistemindən əlaqəsi kəsilib.

2014-cü ildə nüvə danışıqlarındakı irəliləyişlə əlaqədar ABŞ bir sıra sanksiyaları dayandırıb. O cümlədən, İrandan neft-kimya məhsullarının alınmasına qoyulan qadağa aradan qaldırılıb. Eyni zamanda, Aİ İran neft məhsullarının idxalına və qızıl və qiymətli metalların ticarətinə qoyulan qadağanı dayandırıb.

2015-ci ilin iyulunda İran və altı ölkə, o cümlədən ABŞ və Rusiya, Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) imzalayıb və onun icrası çərçivəsində 2016-cı ilin yanvarında İrandan sanksiyalar ləğv edilməyə başlanıb. Bunun müqabilində Tehran nüvə proqramını dondurmalı oldu.

2018-ci ilin mayında ABŞ prezidenti Donald Tramp nüvə sazişindən çıxdığını bəyan edib. Əvvəllər ləğv edilmiş sanksiyalar tam şəkildə bərpa edilib, sonra isə sərtləşdirilib. Belə ki, ABŞ 2019-cu ildə İslam İnqilabı Keşikçiləri Korpusunu (İİKK) terror təşkilatları siyahısına əlavə edib. 2020-ci ildə iranlı general Qasım Süleymaninin Bağdadda öldürülməsindən sonra münasibətlər mürəkkəbləşib. İranın fiziki və şirkətlərinə qarşı sanksiyalar sonuncu dəfə 2022-ci ildə tətbiq edilib.

***V.VƏLİYEV***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ürəyimizə görə dünyada birinciyik

***Dünyada ölümlərin birinci səbəbi olan ürək xəstəlikləri hər gün yüksələn nisbətlə dəyişir. Ürək sağlamlığına uşaq yaşlardan diqqət eləməyin vacib olduğunu deyən kardioloqlar xəstəliyin yayılma səbəbi kimi anormal iqlimi, natural olmayan qidalanmanı, oturaq həyat tərzini və stress dolu iş həyatını səbəb***







29 sentyabr - Ümumdünya Ürək Günü Dünya Ürək Federasiyası tərəfindən yaradılıb və ilk dəfə 2000-ci ildə qeyd olunub. Bu günün təsis edilməsində məqsəd insanların diqqətini ürək xəstəliklərinin və insultun əsas ölüm səbəbləri olduğuna çəkmək, bu xəstəliyin hər il dünyada milyonlarla insanın ölümünə səbəb olduğunu bildirməkdir. Ümumdünya Ürək Federasiyası tütün istifadəsi, qeyri-sağlam qidalanma və fiziki fəaliyyətin olmaması kimi əsas risk faktorlarına nəzarət etməklə ürək xəstəlikləri və insult nəticəsində baş verən vaxtından əvvəl ölümlərin ən azı 80%-nin qarşısının alına biləcəyini bildirir.

Ürək-damar xəstəlikləri adətən həyat tərzi, xüsusilə tütün məmulatlarının istifadəsi, qeyri-sağlam qidalanma vərdişləri, fiziki hərəkətsizlik və stressdən qaynaqlanır. Dünyada hər il qeydə alınan ölüm hallarının 6%-i hərəkətsizlikdən qaynaqlanır. Uşaqlıqda piylənmə, şəkərli diabet və fiziki fəaliyyətin azlığı kimi risk faktorlarının olması yetkinlik dövründə ürək xəstəliyinə tutulma riskini xeyli artırır. Fiziki fəaliyyət insan sağlamlığı üçün ən vacib amildir. Xüsusilə də oturaq işdə işləyən insanlar üçün idman, hərəkət daha vacibdir. Fiziki aktivlik tənbəlləşmiş əzələləri oyadır, ürək və qan dövranı sistemini gücləndirir, bədən elastikliyini artırır və ümumi sağlamlığı və gümrahlığı yaxşılaşdırır.

Siqaret ürək xəstəliklərini yaradan səbəblərdən biridir. Hər iki tütün istifdəçisindən biri onunla əlaqəli xəstəliklərdən ölür. Bu gün təəssüf ki, siqaret çəkən uşaq və gənclərin sayı da getdikcə artır. Hər il 600 mindən çox insan, o cümlədən uşaqlar tütündən istifadə etməsələr də, passiv siqaret istifadəçisi kimi qazandığı xəstəliklərdən dünyasını dəyişir. Körpələrin siqaret tüstüsünə passiv məruz qalması nəticəsində qəfil ölümlər də baş verir. Siqareti tərgitmək və passiv tüstüyə məruz qalmamaq ürək xəstəliyi və insult riskini azaldır.

Ürək xəstəlikləri və insult da daxil olmaqla ürək-damar xəstəlikləri səbəbindən hər il dünyada 17-18 milyon insan ölür. 2030-cu ildə bu rəqəmin 23 milyon olacağı gözlənilir. Ürək xəstəlikləri və insult qarşısı alına bilən xəstəliklərdir. Sağlam qidalanma vərdişləri əldə etməklə, müntəzəm idman etməklə, alkoqoldan və tütündən istifadə etməməklə özünüzü bu xəstəliklərdən qoruya bilərsiniz. Ürək xəstəliyinin və insultun daha çox yaşlı insanlarda və kişilərdə rastlanması da yanlış fikirdir, ürək xəstəliklərinin cinsi və yaşı yoxdur.



Qadınlar arasında bir nömrəli ölüm səbəbi ürək xəstəliyidir ki, hər 3 qadından 1-i bu səbəbdən ölür. Uşaqlar da risk altındadır, qeyri-sağlam qidalanma, hərəkətsizlik bu xəstəliyi yaradan əsas amillərdəndir. Uşaqlar hətta ürək xəstəliyi və insult üçün ikiqat risk altında ola bilərlər. Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, ürək-damar xəstəliklərindən ölüm hallarının 4-də 3-nün qarşısı alına bilər, sağlam həyat tərzi və qidalanma, hərəkət vacib şərtlərdəndir.

Qeyd edilən səbəblərə görə ürək xəstəlikləri hazırda bütün dünyada böyük sağlamlıq probleminə çevrilib. İnsanlar normal həyat tərzi keçirmir, normal qidalanmır, stress altında işləyirlər və bunun qarşılığında da həyati funksiyalı orqanını xəstələndirirlər. Lakin unutmaq olmaz ki, bir çox hallarda bu xəstəliklərin qarşısını almaq olar. Sağlam həyat tərzi vərdişləri, balanslı qidalanma, müntəzəm idman, stressdən qorunmaq və siqaret kimi zərərli vərdişlərdən uzaq durmaq kimi tədbirlər ürəyimizin sağlamlığını qorumaq üçün çox vacibdir.

Ötən il Bakı Baş Səhiyyə Mərkəzinin yaydığı məlumatda bildirilirdi ki, ölkəmizdə ölümlə nəticələnən xəstəliklər içərisində ürək və qan-damar xəstəlikləri üstünlük təşkil edir. Mərkəzin ötən ilki hesabatına görə, təkcə 2023-cü ilin yanvar ayı ərzində 901 ölüm hadisəsindən 613-ü ürək və qan-damar xəstəlikləri səbəbindən baş verib. Bu isə ümumi ölüm hadisələrinin 68%-nə bərabərdir. Statistikaya görə, dünyada və o cümlədən Azərbaycanda ölüm hallarına görə ürəyin işemik xəstəlikləri (tromb, infarkt, stenokardiya və s.) birinci yerdədir. Hər il ölkəmizdə orta hesabla 30 min nəfər ürək, qan dövranı xəstəlikləri səbəbindən dünyasını dəyişir. Ölənlər arasında üstünlüyü qadınlar təşkil edir. Bunun başlıca səbəblərindən biri insanların vaxtlı-vaxtında həkim müayinələrindən, tibbi yoxlanışlardan keçməməsi göstərilir.

Ötən il ürək, qan-damar sistemi xəstəliklərindən baş verən ölüm hallarına görə ölkəmiz dünyada Tacikistandan sonra ikinci yerdə qərarlaşmışdı. Ölkəmizin 183 ölkə sırasında reytinq dərəcəsi isə 388.41 olub. Rusiya isə 204.50 reytinq dərəcəsi ilə siyahıda 27-ci yerdə qərarlaşıb və bununla ürək, qan-damar sistmei xəstəliklərinə görə Azərbaycanla yanaşı ən riskli ölkələrdən biri hesab edilib. Ən riskli ölkələr sırasında Ukrayna 4-cü, Gürcüstan 24-cü, Ermənistan 28-ci olub.

Əgər siz də ürəyinizin ağrıdığından şübhələnirsinizsə onda bu əlamətləri özünüzdə axtarın: ağrı, tənginəfəslik, yorğunluq və halsızlıq, sürətli döyüntü, ayaqlarda və qarında şişkinlik, öskürək, huşunu itirmək, həzm problemi, hıçqırıq və udqunmaqda çətinlik, baş və ənsə ağrıları, eləcə də göyərmə kimi əlamətləri özünüzdə müşahidə edirsinizsə dərhal həkimə müraciət edin.

Ürəyi qanla təmin edən damarların tıxanması ürək xəstəlikləri arasında ən çox yayılmış formadır. Bu zaman ürək lazımı qədər oksigen ala bilmir və ağrı ilə sahibinə xəbərdarlıq edir. Lakin nəzərə alın ki, sinənizdə hiss etdiyiniz hər ağrı ürək ağrısı deyil. Əzələ, qabırğa, onurğa, yemək borusu, ağciyərə aid xəstəliklər də eynilə ürək sancıları kimi ağrılar yarada bilir. Əgər çox yorulanda və həyəcanlananda ağrı hiss edirsinizsə deməli ürəyə gedən damarda tıxanıqlıq olma ehtimalı çoxdur. Eyni zamanda xroniki nəfəs yetməzliyi həm ürək, həm də ağciyər xəstəliyi ilə əlaqədar ola bilər. Bundan əlavə piylənmə və qocalıq da nəfəs darlığı yaradır. Əgər siz hərəkətsiz dayananda da nəfəs almaqda çətinlik çəkirsinizsə deməli probleminiz ürəyinizlə bağlıdır.

Ürək əzələlərini sağlam saxlamaq, infarkt və insultdan qorunmaq üçün sağlam qidalanma vacib şərtdir. Yulaf ürəyin dostu olan qidalardandır, tərkibi kalium və omeqa-3 turşusu ilə zəngindir. Qızılbalıq ürək üçün ən faydalı balıq növüdür. Belə ki, tərkibində trombların yaranmasının qarşısını alan maddələr var. Avokadonun tərkibindəki yağlar qandakı xolesterinin miqdarını aşağı salır, zeytun yağı da həmçinin. Ürəyimiz üçün badam və qoz da faydalı məhsullar sırasına daxildir, hər ikisi omeqa-3 turşusu ilə zəngindir. Əksər giləmeyvələr ürək üçün faydalıdır, xüsusən çiyələk, qaragilə. Bütün paxlalılar, xüsusən mərci ürəyin dostudur. İspanaq və soya da ürək üçün faydalı qidalardandır.

Soyuducunuzu və ərzaq dolabınızı gözdən keçirin, hazır qidaların hamısını çıxarıb atın, onların yerini meyvə və tərəvəzlə doldurun. Yağdan, duzdan, şəkərli qidalardan uzaq olun, idman edin, mümkün olduğu qədər işə piyada getməyə çalışın, tam olmasa da yolun yarısını piyada gedə bilərsiniz, ictimai nəqliyyatdan istifadə edərək işə çatmağa 2 dayanacaq qalmış enib piyada davam edin. Əgər velosipediniz varsa işə onunla gedin, o, ürəyinizin ən böyük dostudur. Televizor izləmək yerinə həyətdə gəzişin, qonşularınızla söhbətləşin, ev işləri görün. Stressdən uzaq durun, o sizin ürəyinizin ən böyük düşmənidir.

***Lalə Mehralı***

# “Ən optimal çıxış yolu məsələnin danışıqlar yolu ilə həll olunmasıdır”

***“Öz mənzilini, yaxud da, hər hansı daşınmaz əşyasını banka girov qoyaraq bankdan pul vəsaiti götürmüş və götürdüyü krediti ödəməyən şəxs bilməlidir ki, əvvəl-axır bank onu məhkəməyə verəcək". Bu sözləri SİA-ya açıqlamasında vəkil Anar Qasımlı deyib. O bildirib ki, məhkəməyə verdikdə yekun etibarilə həmin əmlak onun əlindən çıxa bilər: "Bank məhkəmədə kredit məbləğinin tutulması barədə iddia qaldırdıqda və həmin əmlaka yönəlməsi, əmlakın hərracla satılıb pulun ödənilməsi barədə iddia qaldırır.***



Banklar adətən bunu bir qədər gec edirlər. Çünki burada məqsəd var. Kreditin məbləği şişsin, faizlər artsın, eyni zamanda təcrübədə ən böyük problemlərdən biri ondan ibarətdir ki, bir neçə dəfə hərraclar baş tutmur, banklar bu əmlakları su dəyərinə, dəyərindən qat-qat aşağı qiymətə alırlar. Ona görə vaxtında krediti ödəmək lazımdır. Əks halda bu cür problemlə üzləşə bilərlər.

Təcrübə göstərir ki, bəzi adamlar məhkəməyə müraciət etmək hüququndan sui-istifadə edərək bankalara qarşı müxtəlif iddialar qaldırırlar, yaxud da, bankın verdiyi iddia üzrə müxtəlif prosessual imkanlardan istifadə etməklə yekun məhkəmə aktının çıxarılmasını, onun icraya yönəldilməsini ləngidirlər. Bir yandan anlamırlar ki, təkcə kreditin ödənilməsini ləngitmirlər, eyni zamanda özlərinə əlavə faizlərin hesablanmasına səbəb olurlar. Ona görə bank mübahisələri olduqda, kreditin mübahisələri olduqda ən optimal çıxış yolu məsələnin sülh, danışıqlar yolu ilə həll olunmasıdır. Bunun üçün məhkəmədən kənar bankla razılığa gəlib müəyyən qərarlar qəbul olunmasına nail olmaq olar”.

***Söylü Ağazadə***

# Donald Trampın imzası olan qol saatları satışa çıxarılıb




***ABŞ-da Respublikaçılar partiyasından prezidentliyə namizəd Donald Trampın seçki kampaniyası sabiq prezidentin imzası və şəkli olan qol saatlarının satışına başlayıb. Bu barədə məlumat saatın satıldığı “Trump Watches” saytında yer alıb.***

Saatın iki modeli təqdim olunur. Qiyməti 100 min dollar olan “Tourbillon” modeli 122 brilyantla bəzədilib. “Fight Fight Fight” adlanan digər model isə dizayndan asılı olaraq alıcılara 499-799 dollara təklif edilir. Saatların arxasında sui-qəsd cəhdində sonra yumruğunu yuxarı qaldıran Trampın şəkili və imzası həkk olunub. Hər iki model 18 karatlıq qızıldan hazırlanıb. “Trump Watches” saat satışından əldə edilən gəlirin Donald Trampın seçki kampaniyasına xərcləməyəcəyini bildirib.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**

**6 aylıq 79.20 AZN**

**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# DİN vətəndaşlara müraciət edib - qanunsuz odlu silahlarla bağlı...



Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davamlı olaraq həyata keçirilir. SİA DİN-ə istinadən xəbər verir ki, sentyabrın 26-da polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 10 avtomat silahı, 8 tapança, 37 qumbara, 15 partladıcı, 4 alışdırıcı, 48 tüfəng, 21 patron darağı və 1322 ədəd müxtəlif çaplı patron aşkar edərək götürüblər:

”Qanunsuz saxlanılan odlu silahın ehtiyatsızlıqdan və ya diqqətsizlikdən ağır nəticələrə gətirib çıxarmasının və ya cinayət alətinə çevrilməsinin mənəvi və hüquqi məsuliyyətini dərindən dərk edən bir çox vətəndaş onları könüllü təhvil veriblər. Bu, polis-vətəndaş münasibətində formalaşan etimaddır. Qanunsuz saxlanılan odlu və döyüş silahlarını, partlayıcıları könüllü təhvil verən hər bir insan vətəndaşlıq nümunəsi göstərir.

Bir daha vətəndaşlara müraciət edirik ki, qanunsuz saxlanılan odlu silahlar könüllü təhvil verilməlidir. Bu vətəndaşlıq nümunəsinin kütləvi təşviqini nəzərə alaraq cəmiyyətin hər üzvünün dəstəyi önəmlidir. Vətəndaşlar əmin olsunlar ki, hər bir qanunsuz saxlanılan odlu silah təhlükə mənbəyidir, hansısa ictimai təhlükəli əməlin törədilməsində alətə çevrilə bilər. Cəmiyyətdə böyük məmnuniyyətə səbəb olan bu tədbirlərə dəstək verən hər bir vətəndaşa təşəkkür edirik”.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**